*T u n c ə r   C ü c ə n o ğ l u*

# FOSFORLU CEVRİYƏ

## ( İSTANBUL KÜÇƏLƏRİ )

*(İki hissəli müzikl)*

Suat Dərvişin eyniadlı romanının
motivləri əsasında

*Sevda Şenerə*

***Azərbaycan dilinə tərcümə edən:***
**ELVİN NURİ**

İSTANBUL – 2015

**Səhnə tərtibatı :**
*Düz qabaqda qara fon pərdəsi var...*
*Nəhəng bir küçə fənəri...*
*Küçədə zibillər dolub-daşıb, demək olar ki, topalanmışdır.*
*Sağ küncdə bir masa var. Üstündə də bir dənə yazı maşinkası*

***İ ş t i r a k   e d i r l ə r :***

**Suat Dərviş – Fosforlu Cevriyə**

**Adam**

**Boru Aytən**

**Dəli Marika**

**Top Məlahət**

**Yeddibəla Gülsərən**

**Gülnaz**

**Sünbül dudu**

**Hacı**

**Barba**

**( Müavin, Gözətçi, Biri, Digəri, Çopur Vəli, Əsgər, Qadın, Kişi, Udçu Kor Abdi )**

**ZAMAN : 1947**

**MƏKAN : İstanbul**

**MÖVSÜM : Oktyabr ayı**

## B İ R İ N C İ   H İ S S Ə

SUAT DƏRVİŞ. *(Olduqca şux və gözəldir. Səhnənin mərkəzinə gəlir.)*

İSTANBUL KÜÇƏLƏRİ
1947...
Aylardan oktyabr...
Belə bir gecəni
İstanbul heç görmədi...
Adalar və Modalar,
Boğaz kənarı sahillər,
Şişlidə mənzillərdə
İmisti yuvalar...

Heç kim görmürmü
Bu qədər çox ziddiyyəti?
Küçələrdə etibar, güvən axtaran
Yoxsulluq və kimsəsizliyi?

Səkilərdə pişiklər,
Zəif, cılız köpəklər.
Yoxsullar, kimsəsizlər
İsti bir şorba istər!

Və tinlərin başında
Hər yaşda qadınlar var.
Bəxşişi çox verən bir nəfəri gözləyirlər,
Əsə-əsə tamaşa eləyirlər.

Heç kim görmürmü
Bu qədər çox ziddiyyəti?
Küçələrdə etibar, güvən axtaran
Yoxsulluq və kimsəsizliyi?

*(Masaya yaxınlaşır və oturur. Yazı maşinkasına bir kağız keçirir. Yazdıqları, tamaşaçıya yazı maşinkasının düymələrinin səsi ilə bərabər verilir. Hərdənbir dayanıb, oxuyur.)* 1947-ci ilin soyuq bir payız gecəsi idi. İstanbulun iliklərə işləyən gecələrindən biri. Belə gecələrdə düz-əməlli yağış yağmazdı, amma, sanki, gecənin qaranlığı havadakı rütubəti nasosla havaya püskürdürdü. İnsanlar ilk tapdıqları vasitə ilə tez bir vaxtda evlərinə çatmağa çalışırdılar. Tramvaylarla, marşrut taksilərlə, avtobuslarla, ya da qayıqlarla gedəcəkləri yerə çatmağa çalışırdılar. Getməyə yerləri olmayanlar çayxanaları doldururdular. Artıq İstanbulun küçə və prospektlərində gözətçilər, küçə qadınları və gecə işlərində işləyənlərdən başqa heç

kim yox idi... İstanbulun nəmli küçələrinin, yanğın müəssisələrinin, qəbristanlıqların, divarların, Tekfur Sarayının xarabalıqlarının və bostanların ən cazibədən qızı idi Fosforlu Cevriyə. Avaralar onu bir-birlərinə tövsiyə edərdilər. Fosforlu ilə bir yerdə görünmək aralarında ən böyük lovğalanmak mövzusu idi. Heroinə görə bir il həbsxanada yatıb, çölə çıxandandan sonra da bir illik iqamətdə qalmağa məcbur edilmişdi. Boluda qısa bir müddət vaxtını keçirəndən sonra, bir yük maşınına minib, gizlincə həsrətini çəkdiyi İstanbula gəlmişdi. Bütün bədəni xəfif-xəfif titrəyirdi. Necə titrəməsin? Gecə ayazına öyrəncəli olan Cevriyənin belə titrəməsi, bəlkə də, bir il həbsdə yatıb, küçənin ayazını yadından çıxartması ilə bağlı idi. *(Ayağa qalxır, üstündəkiləri atır. Sanki, Fosforlu Cevriyədir.)*
FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Salam bacılar! Salam qardaşlar! Hamıya salam! Adım Cevriyədir. İstanbulda doğulub, böyüyüb, burda da yaşayıram. Amma Cevriyə deyib, soruşmasınız, məni heç kim tanımaz. Amma Fosforlu Cevriyə desəniz, Bəyoğlu təhlükəsizlik idarəsindən qəyyumlara, səhər tezdən işləyən çayxanalardan Qumqapı meyxanələrinə, Taksimdən Məcidəköyə qədər bütün məxluqat məni tanıyır. Əgər desəniz ki, niyə “fosforlu”, nigaran qalmayın, deyim. Mənə yaxşı baxın. Saçlarıma, gözlərimə. Gördüyünüz kimi saçlarım və bütün varlığım ətrafa işıq saçır. Bu, mənim sözüm deyil, ha! Hamı belə deyir. Baxın, burada yanan küçə fənərinin işığı belə, məndəki bu parıltıları canlandırmağa, yaratmağa kifayət eləyir. Düzdür? Hekayəsinə qalanda isə... Keçmişdə bir gecə küçədə müştəri gözləyəndə, birdən fit səsləri eşitdik. Polislər gəlirdi. Bir anın içində dağılışdıq. Canımı qorumaq üçün yarıyacan boş olan zibil çəlləyinə girdim. Qapağını başıma çəkdim. Aradan onlara baxırdım. *(Gözətçilər bütün qızları aparır. Gözətçilərdən biri şübhələnir. Gəlib, zibil çəlləyinin qapağını açır və Cevriyəni boynundan tutub qaldırır.)*
GÖZƏTÇİ. Gəlin, gəlin. Burda da bir fosforlu var.
FOSFORLU CEVRİYƏ *(Tamaşaçılara)* O gündən adım Fosforlu oldu. Ondan sonrası da aşağı Fosforlu, yuxarı Fosforlu. Dedim axı. Özümü tanıyandan İstanbul küçələrindəyəm. Amma bir il idi ki, buralarda yox idim. Həbsdə idim. Çıxandan sonra da bir illik məcburən Boluya göndərildim. Yəni sürgünə. Boluda düz bir həftə qaldım. Ondan artıq dözə bilmədim, bir yük maşının arxasına atılıb, aranıza qayıtdım. Bayaqkı bacı sürgün səbəbimi narkotik deyib, ötürdü. Bəli, narkotik. Amma bu narkotik işində zərrə qədər də olsun günahım yox idi. Siz Vəlini tanımırsınız. Digər adı çopur Vəlidir. Bax, hadisə eynən belə oldu.
ÇOPUR VƏLİ. *(Birdən əlindəki bağlamanı Fosforlunun əlinə tutuşdurur)* Bunları götür.
FOSFORLU CEVRİYƏ. Nədir?
ÇOPUR VƏLİ. Uzatma, götür... *(Qaçır)*

*(Birdən bir Polis və Gözətçi görünür. Fosforlunu qollarından tutub, polis idarəsinə aparırlar.)*

POLİS. Sənə bu bağlamaları kim verib? De görək, tez! De, de!

FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Dalınca da məhkəmələr... Amma deditdirə bilmədilər. O qədər kötəyə, əziyyətə rəğmən, məni danışdıra bilmədilər. Desəniz ki, niyə? İnsanın heysiyyəti, şərəfi, namusu, insanlığı yoxdurmu? Yəni qətiyyən xəbərçilik kimi bir şərəfsizlik eləmədim. Eləmərəm də. Hamısını qoyaq bir tərəfə. Onu-bunu ələ versək, hər gördüyümüzü polisə şikayət eləsək, bu İstanbul küçələri bizim kimilərinə zindan olmazmı? Beləsi bir xəlvətdən yaxşı deyilmi? Gedib, paşa-paşa bir il içəridə yatdım. Tövsiyə edirəm ki, siz də həmişə mənim kimi edin. Nəticədə, bu banka dibli dünyada yaşayarsınız. Yaşamaq həmişə Taxtalıköydə uzanmaqdan yaxşıdır. Bacılar, qardaşlar, elə deyil?

YAŞAMAĞI SEÇMƏK
Ləyaqət, şərəf və namus
Xəbərçilik etmə deyir bizə.
Əgər küçədə yaşayırsansa,
Diqqət etməlisən buna!

Küçənin qanunu sərtdir,
Səhvi bağışlamaz əsla.
Görsən, görməyəcəksən,
Eşitməyəcəksən, eşitsən də.

Tutaq ki, əksini etdin,
Ələ verdin onu, bunu.
Dözümlülüyü yox bu işin,
Küçələrin yazığı gəlməz sənə.

Eləysə ən yaxşısı,
Ləyaqət, şərəf, namus deyib,
Quyruğu dik tutaraq,
Seçməkdir yaşamağı!

Küçələr öyrətdi bizə
Bu seçimin fəzilətini.
Dedik axı, biz şərəfliyik,
Danışmaq haramdır bizə.

*(Tamaşaçılara)* Nəysə, gələk bu günə. Cib deşikdir. Əl-ovucda bir qəpik yoxdur. Acından qarnım da nağara vurur. İş doymaqla da bitməyəcək. Yatmağa yer də tapmalıyam. Elə indicə. Çarəsi? Bax, budur, çarəsi gəlir. Bu bir əsgərdir, deyəsən. Niyə, çünki əlində taxta çamadanı var. Saçları da yoxdur.
FOSFORLU CEVRİYƏ. Axşamın xeyir, igidim.
ƏSGƏR. Axşamınız xeyir, bacım.
FOSFORLU CEVRİYƏ. Bir siqaret ver də. *(Götürür)* Bir də yandıran, əsgər ağa.

ƏSGƏR. Əsgər olduğumu hardan başa düşdün?
FOSFORLU CEVRİYƏ. Mən başa düşərəm, aslanım. O da bizim işimizdir. Hara belə?
ƏSGƏR. Bayram icazəsinə çıxmışam. Məmləkətə.
FOSFORLU CEVRİYƏ. Mənə bir az pul verərsən?
ƏSGƏR. Niyə verim ki?
FOSFORLU CEVRİYƏ. Qarnım acdır. *(Nazlanır)* Elə bu saat getməlisən?
ƏSGƏR. Yooox...
FOSFORLU CEVRİYƏ. Eləysə, gəl, bir az danışaq.
ƏSGƏR. Getməyə yerimiz yoxdur ki...
FOSFORLU CEVRİYƏ. Sən əsgərsən. Əsgər diz çöküb, şəkil çəkər. Sən hər yerdə şəkil çəkərsən. *(Gülümsəyir)* Amma... *(Zibil çəlləyinin arxasını göstərir)* Kim görəcək?
ƏSGƏR. Görməzlər?
FOSFORLU CEVRİYƏ. Amma çox kayfa düşüb, qışqırma.
ƏSGƏR. Nə qədər verəcəyəm?
FOSFORLU CEVRİYƏ. Yemək pulu bəsdir.
ƏSGƏR. Lüks restoranda da yemək var, əl arabasında da.
FOSFORLU CEVRİYƏ. Quru paxlalı plov, aslanım. Bir də yol pulu, bəsdir. *(Guya çəlləklərin arxasına keçirlər.)* Qırmızı meşin, paralar peşin. Nəğd... Pullar bu başdan...
ƏSGƏR. Quru paxlaya yetəcək qədər demişdin.
FOSFORLU CEVRİYƏ. Plovu da var.
ƏSGƏR. Hələ avtobusa da verəcəyəm. Yolum uzaqdır. Başqa yoxdur.
FOSFORLU CEVRİYƏ. Allah bərəkət versin! (Allah yetirsin!)
ƏSGƏR. Bərəkətini gör.
FOSFORLU CEVRİYƏ. Dayan, ayaq səsi gəlir. Uzan. *(Başını qaldırıb baxır)* Bu, bizim Dəli Marikadır. *(Birdən fit səsləri... Qışqırıqlar...)* Polislər! Vay, vay! Qaç! Dayanma! Ələ keçəcəyik...

*(Əsgər bir əli ilə şalvarını çəkir, digər əli ilə isə taxta çamadanını götürüb, qaranlıqda itir.)*

BORU AYTƏN. *(Gözətçi görür)* Belə şansın düz ortasına...
GÖZƏTÇİ. Hansı tərəfə qaçdı?
BORU AYTƏN. Mən nə bilim?!
GÖZƏTÇİ. Şapalaq gəlir, ha!.. Ayağa dur.
BORU AYTƏN. Kasıb oğurluğa gedəndə, Ay tez doğar məsələsi... Belə şansın içinə tüpürüm...
GÖZƏTÇİ. Söyüş söymə.
BORU AYTƏN. Olar. Bal-böyrək qoyaram.
GÖZƏTÇİ. O tərəfə qaçan kim idi?
BORU AYTƏN. Mən nə bilim?!

GÖZƏTÇİ. Dedim, kim idi?
BORU AYTƏN. Üzünə baxmağa fürsət olmadı ki... Yanımdan vıyıltıyla getdi.
GÖZƏTÇİ. Ay səni, hələ bir bir-birinizi qoruyursunuz... Necə olsa, onu da ələ keçirəcəyəm.
BORU AYTƏN. Ay, ələ keçirdiz, ha!
GÖZƏTÇİ. Ay arvad, abırsızlaşma...
BORU AYTƏN. Abırsız atandır!..
GÖZƏTÇİ. Şapalaq gəlir, ha!.. Top Məlahət idi, hə?!
BORU AYTƏN. Top yox, güllə idi. Qardaş, sən bir eynək al. Artıq burnunun ucunu görmürsən.
GÖZƏTÇİ. Əşşi, mən Topu min nəfər qadının arasından seçərəm. Bu küçələrdə top kimi tullana-tullana əlimizdən qaçmağı bacaran başqa qadın var?
BORU AYTƏN. Var!
GÖZƏTÇİ. Kim?
BORU AYTƏN. Mən!
GÖZƏTÇİ. Ay səni, qotur pişik! Ona görə, ələ keçdin?
BORU AYTƏN. *(Qanayan dizini göstərərək)* Yıxılmasaydım, sən məni çətin ələ keçirə bilərdin.
FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Birdən zibillərin içindən səs gəldi. Gizlənsəm də mənasız idi.
GÖZƏTÇİ. *(Gəlir)* Qalx ayağa!

*(Fosforlu Cevriyə ayağa qalxır.)*

BORU AYTƏN. Vay!..

*(Bir-birilərinə sarılırlar, eşidilməyəcək şəkildə danışırlar.)*

BORU AYTƏN. *(Ağlayaraq)* Sənin üçün darıxmışdım.
FOSFORLU CEVRİYƏ. Adımı demə, Boru. Mən də hamınız üçün darıxmışam. Yaman xarab olmusan, Boru. Hardasa, bir dəri, bir sümük qalmısan.
BORU AYTƏN. Zibil iş tutduq, ha!
FOSFORLU CEVRİYƏ. *(Əlini alnına qoyur)* Qızdırman da var, qız.
BORU AYTƏN. Heç nə olmaz.
GÖZƏTÇİ. Artistlik eləməyin! Normal rəftar eləyin.

POLİS MƏNTƏQƏSİ

Çözülməyən dilləri,
Açılmayan gülləri,
Ələ keçirməzmi, canım,
Şöbənin məsul şəxsi.

Davalılar gəlməsin,

Vuruşanlar düşməsin,
O saat barışmayanlarısa
Komissarım görməsin.

Məhkəməyə buraxmadan,
Məqsəd burda fasilə etmək.
Hakimlərin duasıyla
Haradasa, zarafat etmək.

Qaniçənlər rəhbərliyə,
Oyananlar meyxanəyə,
Yaralılar ilk yardıma,
Polis məntəqəsidir bura.

Şöbənin məsul işçisi,
Bəyoğlunun sürməlisi,
Geyi, oğraşı, xaini,
Bütün millət burdayıq.

FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Şöbədə müavinin otağına girdik.
GÖZƏTÇİ. Bura oturun.

*(Otururlar, Boru yorğunluqdan başını Fosforlunun çiyninə qoyur.)*

FOSFORLU CEVRİYƏ. *(Boru Aytənə)* Müavin, gözətçi? Bunlar təzədir?
BORU AYTƏN. Hə...
MÜAVİN. *(Qabağında ayaq üstə dayanan iki nəfər var)* Aydındır?
BİRİ. Aydındır.
DİGƏRİ. Aydındır.
MÜAVİN. Ürəyinizcə deyilsə, fikrimi dəyişim, ha...
BİR YERDƏ. Deyilik.
BİRİ. Amma əvvəlcə, o üzr istəsin, cənab komissar.
MÜAVİN. Eləysə, birinci sən istəyəcəksən. Hə, susma görək. *(Adamın ağzından bilinir-bilinməz bir "üzr istəyirəm" çıxır.)* Heç belə şey olar?!
BİRİ. Olmadı?
MÜAVİN. Olmadı. Daha başa düşülən, aydın olsun.
BİRİ. Üzr istəyirəm.
MÜAVİN. Sən də.
DİGƏRİ. Üzr istəyirəm.
MÜAVİN. Bəs eləməz. Qucaqlaşın, ala! *(Könülsüz qucaqlaşırlar.)* Dava eləyirmiş kimi yox! Ürəkdən, ala, ürəkdən! Məhəbbətlə! Bax, belə... İndi rədd olun gedin! Bir də dava edib, yanıma gəlsəz... Gəlməsəz, ondan yaxşıdır. Yəni özünüzü dənizə atıb boğulsaz, ondan yaxşı olar. Başa düşdüz, ala?

BİRLİKDƏ. Başa düşdük.
MÜAVİN. Hə, indi yeriyin. Sürüşün! *(Bir yerdə gedirlər. Gözətçiyə)* O birisi hardadır?
GÖZƏTÇİ. Top Məlahət yenə əlimizdən qaçdı. Tutmağa çalışırlar.
MÜAVİN. Sən də get. Üç-beş nəfər də gətirin ki, gözə girsin, çox görünsün. Deyək ki, bunları tutduq. *(Gözətçi çıxır. Müavin əlindəki siqareti ortalığa atır. Fosforlu siqareti götürmək üçün Borunun başını sıraya dayaq kimi qoyub, ayağa qalxır. Güzgünün qarşısında özünə əl gəzdirəndə)* Yığıncağa getmirsən. Bərbəzəyi saxla. Buralarda da fırlanma.
FOSFORLU CEVRİYƏ. Sən yol polisisən?
MÜAVİN. *(Xoşuna gəlib. Tanımağa çalışır)* Təzəsən?
FOSFORLU CEVRİYƏ. *(Gülümsəyərək)* Deyəsən, sən də təzəsən, qardaş. Nömrəsiz səfər eləmirik. Günah varsa, ver bir Bələdiyyə cəzası! *(Adəti üzrə, siqareti yerdən götürür. Müavinin yanına gedir.)* Oduna yanaq, qardaş.
MÜAVİN. *(Xoşuna gəlib)* Qız, sən bu qədər vaxtı harda idin?!
FOSFORLU CEVRİYƏ. Qara bazarda.
MÜAVİN. Sənin adın nədir?
FOSFORLU CEVRİYƏ. Leyla.
MÜAVİN. O papiros kötüyünü tulla. Belə başa düşürəm ki, sən bizim köhnə müştərilərimizdənsən. *(Bağlamasından bir siqaret verir.)*
FOSFORLU CEVRİYƏ. *(Götürür)* Sağ ol, qardaş.
MÜAVİN. Day o papiros kötüyünü tulla.
FOSFORLU CEVRİYƏ. Artıq mal göz çıxartmaz. *(Qulağının arxasına qoyur.)*
MÜAVİN. Nə olub, xəzan yarpağı kimi əsirsən? Xəstəsən?
FOSFORLU CEVRİYƏ. Yox, əşşi, ayağım bir az soyuqda qalıb.
MÜAVİN. Bu, heç soyuqda qalan ayağa oxşamır.
FOSFORLU CEVRİYƏ. Öyrəncəli adama heç nə olmaz... Sən mənə fikir vermə, boru Aytənə bax. Gör, necə zəifləyib. Hərtərəfli zəifləyib. *(Zəif səslə)* Deyəsən, o tərəflikdir.
MÜAVİN. Sən onu qoy bir yana, özünə bax.
FOSFORLU CEVRİYƏ. Mənə nə olub ki, e, qardaş? İmisti otaqdayıq. Ağlınıza gətirib, məni rəhbərliyin yanına göndərmsəz, burda bir yerdə qısılıb yatarıq.
MÜAVİN. Bizə işimizi öyrətmə.
FOSFORLU CEVRİYƏ. Necə də olsa, quyruğumuzu ələ vermişik. Heç olmasa, gecəni burda keçirək. Burda isindik. Çöl soyuqdur. Hündür səkilərdə daban döymək, körpüdən keçmək çətindir e, qardaş. Üstəlik, kameralarda doludur burda, addıma bir dənə. Bəlkə də, soyuqdur. *(Əsir)*
MÜAVİN. Üz verəndə, o saat astar istəyirsən. Uzatma!
FOSFORLU CEVRİYƏ. *(Görür ki, çayını içir)* Qardaşım, çayının axırını mənə ver də.
MÜAVİN. *(Çay stəkanını uzadırmış kimi edir, amma vermir.)* Bu axşam tutmursan?
FOSFORLU CEVRİYƏ. Xırda puldan istifadə eləmirəm. Yanımda çek dəftəri var.

Sənə bir çek verim. Get banka, kor-peşman qayıt.
MÜAVİN. *(Xoşuna gəlir)* Yaxşı. Çayçı gəlsin, sənə bir stəkana qonaq eləyim.
FOSFORLU CEVRİYƏ. Əskik olma, qardaş. Onsuz da dünya elə sənin kimi insanların hörmətinə görə dayanır. Bu gecə növbətçi Cəmil qardaş olsaydı, mənə soyuq olsun, üşüyüm deyə, pəncərələri açardı. Allahsız!
MÜAVİN. *(Birdən əsəbləşir)* Kəs səsini!
FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Deyəsən, baltanı daşa vurduq.
MÜAVİN. İki ay əvvəl Cəmili vurub öldürüblər. Yerinə gəlmişəm. Çox yaxşılığı dəyib mənə. Yerlim idi. *(Susur)*
FOSFORLU CEVRİYƏ. Allah rəhmət eləsin!

*(Birdən içəriyə Dəli Marika, arxasınca da Gözətçi girir. Əynində parça-parça olmuş bir kürk var. Həmişəki kimi sərxoşdur.)*

GÖZƏTÇİ. Marika bu gecə də yenə hərtərəfli "konservləşib"...
MÜAVİN. Marika, yenə də bu vəziyyətdəsən?
DƏLİ MARİKA. Bəli, paşam.
MÜAVİN. Utanmağı, çəkinməyi də qalmayıb.
DƏLİ MARİKA. Bəli, paşam.
MÜAVİN. Qız, mən sənə nə deyirəm?!
DƏLİ MARİKA. Bəli, paşam.
MÜAVİN. Sən başqa şey bilmirsən?
DƏLİ MARİKA. Adım Marikadır. Dəli Marika deyirlər. Atamın adı Yorqodur. Anamınkı Erifli. 925-ci ildə doğulmuşam. İstanbulluyam. Subayam. Uşaq yoxdur. Ev yoxdur. Heç kim yoxdur.
MÜAVİN. Sus, daha əzbərləmişik. Bura oturt. Ortada qarışıqlıq salmasın.

*(Gözətçi Boru Aytənin yanına oturdur.)*

FOSFORLU CEVRİYƏ. Marika, bura bax...

*(Marika baxır. Tanımır. Bihuş olur. Bayırdan səs-küy eşidilir. Gözətçi başda olmaqla, Top Məlahət birinci içəri girir. Axsayır. Daha sonra əlində çamadanı ilə əsgər. Ən arxadan da Gülnaz və Yeddibəla Gülsərən. Hər ağızdan bir səs çıxmaqdadır.)*

MÜAVİN. Qışqırışmayın!
TOP MƏLAHƏT. Ay nəslinə nə dediyimin dünyası... Danışmağımıza da icazə yoxdur.
MÜAVİN. Qız, səni döyərəm!
TOP MƏLAHƏT. Get arvadını döy.
MÜAVİN. Ay qız, Top, salaram təpiyimin altına...
TOP MƏLAHƏT. Nə oldu, yuxudan elədik?

MÜAVİN. Kəs səsini, qancıq!
TOP MƏLAHƏT. Susdum. Yaxşı. *(Fosforlu Məlahətin çiyninə toxunur.)* Ay səni, Fosforlu!
FOSFORLU CEVRİYƏ. Adımı çəkmə. Tanıyan olsa, bataram. Qaçağam.
TOP MƏLAHƏT. Burda heyət dəyişib, səni heç kim tanımaz.
FOSFORLU CEVRİYƏ. Nə olar, nə olmaz. Yenə də ehtiyatlı olaq. Dizin niyə qanayıb?
TOP MƏLAHƏT. Əsgərin çamadanına girişdik. *(Ayağını göstərərək)* Təkərləri partlatmasaydım, çətin ələ keçərdim. Ay qız, burdasan, hə?! Dünyalar mənim oldu. Uşakda idin?
FOSFORLU CEVRİYƏ. Boluda. Amma bir həftə güclə dayandım. Nə qədər həbsdə olmasaq da Bolu balaca yerdir. Əşşi, həbsxanadan betər idi. Pul-para yox, bir tərəfdən də İstanbulun küçələrinə öyrəşmişik. Divarlarına, xarabalıqlarına. Top, bu İstanbulun qəbiristanlıqlarından ötrü də darıxmışam. Çıxışda əşya daşıyan yük maşını gördüm. Yaşlı bir sürücüsü var idi. Dedim, məni də apar, amma pulum yoxdur. Kişi baqajdakı əşyaları yerləşdirib, mənə yer düzəltdi. Dedi, burda üşüməzsən, min.
TOP MƏLAHƏT. Deməli, hələ də insan övladları qalıb.
FOSFORLU CEVRİYƏ.

KİŞİLƏR
Elə-belədən deyil,
Həyatın özüdür bu ifadə.
Ana bir, bacı iki,
Qalanını oğurla, s...!

Ah, kişilər, kişilər!
Bircə dərdiniz budur sizin.
Ana bir, bacı iki,
Qalanını oğurla, s...!

"Belə deyiləm" deyənə
İnanma qəti, inanma!
Yalandan kim ölüb ki?
Uydur getsin, fikir vermə.

Necə gedərəm İstanbula?
Cib deşik, paltar deşik.
Dedilər, əşya daşıyır
Yaşlı sürücünün biri.

İnsanlıq xatirinə
Gətirdi İstanbula, amma

Yol boyu dayanaraq
Haqqını aldı qoca!

Ah, kişilər, kişilər!
Bircə dərdiniz budur sizin.
Ana bir, bacı iki,
Qalanını oğurla, s...!

TOP MƏLAHƏT. Sevindim, ha, Fosforlu.
FOSFORLU CEVRİYƏ. Qoca məni üç dəfə yaxşı elədi deyə?
TOP MƏLAHƏT. Səni görməyimə...
FOSFORLU CEVRİYƏ. İşlər pisdir. İndi bizi burdan rəhbərliyə aparanda, bir az araşdırandan sonra, sürgün olunduğum başa düşüləcək. Təzədən məni Boluya göndərərlər... Bəlkə də, başqa bir şəhərə. Onda məhv olaram. Ələ keçəcəyəmsə də bir ilin acığını çıxmalıyam e, Top!..
TOP MƏLAHƏT. Ürəyini buz kimi saxla. Bir variant tapıb, səni uçurarıq. Bir az fikirləşim.
MÜAVİN. *(Ayaq üstə gözləyən Əsgərə)* Şalman kimi ayaq üstə dayanma.
ƏSGƏR. Yoldaş komandir... *(Bu sözü hər dəfə uca səslə bağıracaq)*
MÜAVİN. Mən komandirəm?
ƏSGƏR. Xeyr, komandir.
MÜAVİN. Səni niyə gətiriblər, ala, bura?
ƏSGƏR. Elə su tökürdüm ki, (işəyirdim ki) tutub gətirdilər, komandir.
GÖZƏTÇİ. Şalvarını çəkə-çəkə qaçırdı.
MÜAVİN. Kimsən sən? Bu çamadan nədir?
ƏSGƏR. Əsgər paltarlarımdır, komandir.
MÜAVİN. Mülki formanı niyə geyinmisən? Yoxsa, qaçaqsan?
ƏSGƏR. *(Cibindən icazə kağızını çıxarır)* İcazəliyəm, komandir. Bayram icazəsi ilə evimə gedirdim. Tutub, bura gətirdilər.
MÜAVİN. Mən də inandım.
ƏSGƏR. Sağ olun, komandir.
MÜAVİN. Mən də buna aldandım.
ƏSGƏR. Komandir, nə olar... Avtobusum yola çıxsa, mən batdım. Allah xatirinə... Əlini, ayağını öpüm...
MÜAVİN. Sən evlisən?
ƏSGƏR. Evliyəm. İki oğlan cəsurum əllərindən öpür, komandir!
MÜAVİN. Ay səni, alçaq! Ay səni xiyar! Hər qabağına çıxana kələk gəlmək olur?! Su tökəcəkmiş... Mən də inandım, aldandım, hə?!
ƏSGƏR. Aldanmadın, komandir!
MÜAVİN. Allah uzaq eləsin, bir xəstəlik keçsə, nə olar?! Qamışı qırsan, nə pox yeyəcəksən? (neyləyəcəksən?) Xiyar!
ƏSGƏR. Haqlısan, komandir!
MÜAVİN. Düyməni də bağlamamısan hələ...

ƏSGƏR. Bağlayaram, komandir!
MÜAVİN. Səni bir də buralarda görsəm, Allaha and olsun ayaqlarını sındıraram! İtil! Cəld!

*(Əsgər çamadanı alan kimi otaqdan qaçıb çıxır.)*

MÜAVİN. Sənin adın nədir?
GÜLNAZ. *(Saçları havalı. Əynində Sarı bülbül rəngli jaket var. Üzü qat-qat boynamışdır. Nazlı-qəmzəli)* Gülnaz.
MÜAVİN. Atanın adı?
GÜLNAZ. *(Kübar olmağa çalışaraq)* Abdullah.
MÜAVİN. Ananın?
GÜLNAZ. Həvva.
MÜAVİN. Əsil-nəsillikcə hansı ailədənsən?
GÜLNAZ. Əlil övladıyam.
MÜAVİN. Neçə yaşın var?
GÜLNAZ. On beş.
MÜAVİN. Nəəəə?
GÜLNAZ. Olsun iyirmi beş.
TOP MƏLAHƏT. *(Fosforluya)* Hazır ol... Ara qarışan kimi tez qaçarsan. *(Ayağa qalxaraq ortalığa)* Satıram. Satdım. Artıran yoxdur?
GÜLNAZ. Sən nə danışırsan, az?! (ay qız)
TOP MƏLAHƏT. Əlli...
GÜLNAZ. *(Yerindən sıçrayır və Top Məlahətə girişir.)* Anasını, arvadını! *(Saç-saça, baş-başa dalaşırlar. Müavin və Gözətçi onları ayırmağa çalışanda, Fosforlu sıçrayıb qaçır. Bu vaxt mübahisə bitir.)*
MÜAVİN. *(Gözətçiyə)* Bunların qeydiyyatlarını yekunlaşdır. Göndərək müdiriyyətə.
YEDDİBƏLA GÜLSƏRƏN. *(Gözətçi sayanda)* Mənimkini kəllə say. *(Hamı gülüşür)*
MÜAVİN. Hamı ayağa qalxsın. *(Boru Aytəni də göstərərək)* Onu da qaldırın. *(Gözətçi Borunu qaldırır. Boru Aytən təzədən çökür.)* Əməlli-başlı sərxoşdur.
GÖZƏTÇİ. Sərxoş deyil, xəstədir, komissar.

*(Boru Aytən birdən qusmağa başlayır.)*

GÜLZAR. *(Dəhşətlə)* Ağzından qan gəlir.
MÜAVİN. Tez təcili yardım çağır. Zəng elə, gözləmə! Cavabdeh olmayaq.

*(Gözətçi zəng vuranda, qadınlar Boru Aytənin başı üzərində ağlayırlar.)*

FOSFORLU CEVRİYƏ. *(Təng-nəfəsdir)* Oh!.. Dünya var imiş... Qaçdım, qaçdım, bir neçə küçəni keçdim. Nəfəsim kəsildi, dayandım. Əməlli uzaqlaşdım. Artıq

yavaş-yavaş gedirəm. Məcburən. Çünki nəfəsim kəsildi. Bir mehmanxananın qapısındayam. Daş pilləkənlərdə oturdum. Birdən tər basdı. Gözlərim bağlanır. Elə bil ki, yuxu basdı. Başımı divara söykədim. Oturduğum yerdə dizlərimi qarnıma tərəf çəkdim. Büzüşüb oturdum. Hətta yuxuya getdim. Yatıb qalmışdım.

*(Adam ehtiyatlı addımlarla gəlir.)*

ADAM. Kimdir o? Burda neyləyirsiz?
FOSFORLU CEVRİYƏ. Yatıb qalmışam.
ADAM. Durun gedin, başqa yerdə yatın.

*(Fosforlu ayağa qalxmağa çalışır, başı fırlanır, təzədən oturur.)*

ADAM. *(Səsində cəsarətsizlik var)* Neyləyirsiz?
FOSFORLU CEVRİYƏ. Qalxıram. Başım fırlandı, qardaş.
ADAM. Durun! Durun gedin!
FOSFORLU CEVRİYƏ. Xəstəxanadan bu gün çıxmışam, qardaş. Bir tanışımdan pul almaq üçün bura gəlmişəm. O da Trabzona gedib. Tranvaya da pulum yoxdur, qardaş. İcazə ver, burda qıvrılım yatım. Sabaha Allah kərimdir.
ADAM. *(Görür ki, əsir, paltosunu çıxarıb, üstünə örtür)* Siz xəstəsiz.
FOSFORLU CEVRİYƏ. Elə bildim, gedirəm.
ADAM. Başa düşmədim.
FOSFORLU CEVRİYƏ. Elə bil ki, bu gözəl dünyanı ayağımın altından çəkirlər. Elə bildim, yavaş-yavaş çezirəm.
ADAM. Başa düşmədim.
FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Nə zibilə keçdik... *(Adama)* Bura baxsana, qardaş. Göy üzü ulduzlarla doludur. Nə çox ulduz var... Hər biri bizdən birinin ulduzu imiş. Kim ölsə, onun ulduzu göy üzündən itirmiş. Hər ulduz bir insandır. Görəsən, mənim ulduzum hansıdır? Yəqin fosforlu kimi yanan bu balaca olar.
ADAM. *(Narahat)* Buralar elə də etibarlı deyil. Qala biləcəksiniz?
FOSFORLU CEVRİYƏ. Görəsən, mən ölsəm, ulduzlardan hansı uçar? Əgər bilsəydim, nərdivan qoyub, çıxıb, onu göy üzünə mismarla yapışdırardım.
ADAM. Axmaq-axmaq danışmayın. Hə, cəhd eləyib, qalxın.
FOSFORLU CEVRİYƏ. *(Əsərək)* Bu, candır, e, qardaş. *(Qalxmağa cəhd edir, yenə çökür.)* Deyəsən, bu gecə o dünyalıq olacağam.

*(Fit səsləri... Qışqırıqlar...)*

ADAM. Heç olmasa, yuxarı qalxaq. *(Bir əlində bağlama, digəri ilə Fosforluya kömək edərək, qaldırır.)* Səsinizi çıxartmayın. Heç nə deməyin.

*(Fit səsləri xeyli yaxınlaşıb. Evin qapısından içəri girirlər.)*

FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Pillələri bir-bir qalxırdıq. Dincələ-dincələ. Hər pilləni keçdikcə, ürəyimdə sayırdım. Nəhayət, bir qapının qarşısına çatdıq. Kişi qapını açarla açdı.

*(İçəri girirlər. Lampanı yandırır. Bu lampa zəif, qorunmaq üçün istifadə olunan lampadır. Təxminən, mavi işıqdır. Fosforlunu çarpayıya tərəf aparır. Üstündəki paltonu çıxardır. Çarpayıya uzanmasına kömək edir. Üstünə adyal kimi nəsə örtür. Sobanın üstündə böyük bir güyüm (səhəng) var. Sobanın qapağını açır. Bir kiprit yandırıb alışdırır. Çarpayıya tərəf gəlir.)*

FOSFORLU CEVRİYƏ. Eləyəcək məni... Yooox...

*(Adam pərdənin yanına gedir. Bayıra işıq düşüb-düşmədiyini yoxlayır. Sonra da işıq düyməsinə basır. Otaq indi daha işıqlıdır. Düz qabaqda – üz-üzə bir qapı var. İçəri yarı-yarımçıq görünür. Mətbəx kimi bir yerdir. Bir qazanı ocağın üstünə qoyur. İçəridən aldığı çəngəl, bıçaq və boşqabı masanın üstünə qoyur. Masanın üzərində yemək üçün nələrsə var... Pendir, zeytun... Çörək)*

ADAM. Yəqin ki, acsınız. Dura biləcəksiniz?
FOSFORLU CEVRİYƏ. Duraram, qardaş.
ADAM. Dura bilmirsizsə, sini də gətirim.
FOSFORLU CEVRİYƏ. Bərəkəti çarpayıda yeyərlərmi?
ADAM. Axı xəstəsiniz... *(Fosforlu qalxır, yavaş-yavaş masaya yaxınlaşır. Yavaş-yavaş stulda əyləşir.)* Bir az yaxşısınız.
FOSFORLU CEVRİYƏ. Yaxşıyam, qardaş.
ADAM. Gözləyin. *(Mətbəxə keçir)*

*(Fosforlu o saat pendir götürüb, yeməyə başlayır. Əlində balaca kasa ilə Adam gəlir. Kasanı masaya qoyur.)*

ADAM. Bu şorba sizə yaxşı təsir edəcək. *(Ağzı dolu olduğu üçün Fosforlu danışa bilmir.)* Nuş olsun! *(Aclıqdan çıxıbmış kimi şorbaya girişir.)* Deyəsən, yaman acmısınız.
FOSFORLU CEVRİYƏ. *(Başını "hə" mənasında tərpədir, təsdiqləyir)* Allah ruzini bol eləsin!

*(Adam masadakı nəm parçanı uzadır. Fosforlu, sanki, gözləri ilə neyləyəcəyini soruşur.)*

ADAM. Əlinizi silin... Ağzınızı da...

*(Fosforlu silir. Adam çarpayıya uzanmasına kömək edir. Sonra masadakıları götürüb, içəriyə aparır. Masanın üstünü silir.)*

ADAM. Əyninizdəkiləri soyunun. Onları yuyaq. Bu gecəlikləri geyərsiniz. Üzümü çevirirəm. Rahat soyunun.
FOSFORLU CEVRİYƏ. Niyə çevirirsiz ki? İstəyirsiz, baxın, istəmirsiz, baxmayın. Mənim heç vecimə də deyil. *(Əynindəkiləri soyunur. Verilənləri geyinir. Adam kürəyini çevirib. Çarpayıya girir. Adyalı üstünə çəkir.)*
ADAM. Oldu?
FOSFORLU CEVRİYƏ. Gəlirsən?

*(Adam çevrilib yaxınlaşır)*

FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Artıq aydındır ki, eləyəcək.
ADAM. *(Əlini Fosforlunun alnına toxundurur)* Bir az qızdırman var. *(Siyirtmədən çıxartdığı termometri qoltuğunun altına qoyur)* Bir az qalsın. Diqqətli olun, sürüşməsin. *(Bir az sonra termometri alıb baxır. Nəbzini tutur.)* Gərək qızdırmanı salaq. *(Divardakı kiçik şkafdan bir dərman çıxarır. Bir stəkan su ilə verir.)* Bunu için.
FOSFORLU CEVRİYƏ. Qardaş, siz həkimsiniz?
ADAM. *(Gülümsəyərək)* Xeyr. Həkim deyiləm. Hamı kimi mənim də bir az başım çıxır. Sabah axşama qədər mənim qonağım olacaqsınız. Əgər özünüzü yaxşı hiss eləsəniz, gecə çıxıb gedərsiniz.
FOSFORLU CEVRİYƏ. Yaxşı olsam, səhər də gedərəm, qardaş.
ADAM. *(Razı olmur)* Gündüz getmək olmaz. Gecə getməlisiniz... İndi yatın və dincəlin.
FOSFORLU CEVRİYƏ. Sən harda yatacaqsan?
ADAM. Divanda yataram.
FOSFORLU CEVRİYƏ. Məni bura niyə gətirmisən?
ADAM. Xəstəsiniz. Küçədə buraxa bilməzdim.
FOSFORLU CEVRİYƏ. Elə bu?
ADAM. Hə.
FOSFORLU CEVRİYƏ. Ümumiyyətlə, evə qız gətirən kişilər...
ADAM. Üstünüzü yaxşı örtün. Amma qətiyyən səs-küy salmaq olmaz. Tualet ordadır.
FOSFORLU CEVRİYƏ. Bura sənin evin deyil?
ADAM. Burda qalıram. Amma mənim evim deyil. Mehmanxananın qapıçısı mənim qohumumdur. İşləmirəm. Amma burda qaldığımı heç kim bilmir. Yoxsa, qovarlar. Ondan sonra da evsiz-eşiksiz qalaram. Başa sala bildim?
FOSFORLU CEVRİYƏ. Başa saldın, qardaş. *(Tamaşaçılara)* Yorğanı başıma çəkdim. Özümü yatan kimi göstərdim. Kişi masanın üstündəki bağlamanı açdı. İçindən balaca metal hissələr çıxartdı. Elə bil ki, onları seçib ayırırdı. Bayırdan pillələri çıxan ayaq səsi eşidildi. Adam əməlli-başlı narahat oldu. Çıxartdığı hissələri təzədən bağlamaya qoydu. Masanın altında gizlətdi. Üç dəfə qapını döydülər.
KƏRİM. Mənəm, Kərim, aç.

*(Adam işığı söndürüb, qapını açır. Kərim içəri girir. Qapını örtür. İşığı yandırır.)*

ADAM. Gecikmisən.
KƏRİM. Bu yatan kimdir?
ADAM. Xəstədir. Qapının qabağında idi. Çöldə qoya bilməzdim. Getdin?
KƏRİM. Gedib gördüm. *(Əlindəki balaca bağlamanı masaya qoyur.)* Yemək göndərib. Sənin üçün pendirli börək hazırlayıb.
ADAM. Ağladı?
KƏRİM. Ağladı.
ADAM. Yazıq qadın.
KƏRİM. Dedi ki, özünə yaxşı baxsın. Bax, az qala yadımdan çıxmışdı. *(Cibindən kiçik bir bağlama çıxarıb, uzadır)*
ADAM. *(Bağlamanı açır. Qalstukdur. Kövrəlir)* Allah bilir, indi necə pərişandır.
KƏRİM. Daha yaxşı, oğul. Bunlara fikir vermə. Bu gecə bayram ərəfəsidir. Sıxıntı gecəsi deyil.
ADAM. Bir gün gedib onu görsəm, təəccüblənmə.
KƏRİM. Ağlını başına yığ, tutarlar, oğul.
ADAM. Daha dözə bilmirəm. Neçə gündür görə bilmirəm.
KƏRİM. Görəcəksən, amma bu aralar bunu fikirləşmə. *(Çarpayını göstərərək)* Tanımadığın bir adamı bura necə gətirmisən, oğul? Bilmirsən ki, nə yuvanın quşudur. Polisdir, polisin adamıdır?!..
ADAM. Yox, əşşi, Allahın yazığıdır. Sağalan kimi yollayacağam.
KƏRİM. İşığı söndür, aşağı düşək, oğul.

*(Adam işığı söndürür. Kərim sakitcə çıxır.)*

FOSFORLU CEVRİYƏ.

YUYUNMAQ TƏMİZLİKDİR
Neçə gün yatdım, bilmirəm
Qorxularla, kabuslarla.
Hərdənbir oyanaraq,
Başım üstə kübar qardaşım.

Divarlar üstümə gəlir,
Böyüyür, kiçilir.
Kübar qardaş "Qorxma" deyir:
"Qızdırmadandır bütün yuxular".

Gedişini görmürdüm
Açanda gözlərimi.
Masanın üstü həmişə doludur,
"Yeməlisiniz sağalmaq (şəfa) üçün".

Birdən açıldı gözlərim,
Səksənib, qalxdım ayağa.
Hər tərəfi gözdən keçirdim,
İçəriyə İstanbul doldu.

Özüm də yuyundum şkafda,
Əynimi geyindim.
Təmiz olmaq nə gözəldir,
Onsuz da yuyunmaq təmizlikdir.

ADAM. *(İçəri girir. Təəccüblə baxır. Hər şeyin tərtəmiz olduğunu görəndə)* Xəstəsiniz. Özünüzü yormayın.
FOSFORLU CEVRİYƏ. Xəstəliyim keçdi.
ADAM. Bilirsiniz, neçə gün oldu?
FOSFORLU CEVRİYƏ. Bura cızmışdım. Aha, altı.
ADAM. Yeddi. Ohooo, vanna otağını da yumusunuz.
FOSFORLU CEVRİYƏ. Ancaq onu yox, özümü də yuyundurmuşam.
ADAM. Bu soyuqda yuyunmaq olar?!
FOSFORLU CEVRİYƏ. İçəri hamam kimidir, e, qardaş. Neçə gündür çarpayında yatıram. Üstüm-başım da pis gündə idi.
ADAM. İnşallah, bilən olmaz.
FOSFORLU CEVRİYƏ. Sən ürəyin buz kimi saxla, qardaş. Sən nə demisən, hamısına əməl eləmişəm, həqiqətən.
ADAM. Belə necə də gözəl olmusunuz.
FOSFORLU CEVRİYƏ. Sağalmağımın şərəfinə bəzənmişəm.
ADAM. *(Masa arxasında oturur)* Gəlin də.
FOSFORLU CEVRİYƏ. *(Fincanlara çay süzərək)* Bu gün xidmətməndədir.
ADAM. Sizin heç kiminiz yoxdur?
FOSFORLU CEVRİYƏ. Bizim ata-anamız nə gəzir, e, qardaş. Yetimin, kimsəsizin biriyəm. Elə bil, göbələk kimi yerdən çıxmışam.
ADAM. İstanbullusuz?
FOSFORLU CEVRİYƏ. Görməmiş deyilik ki... İstabulun səkilərində göyərmişik e, qardaş. Evin kəlləsindəyik, elə deyil? İlk dəfə gələndə, başa düşmüşdüm. Qalxanda, pillələri saymışam, düz yüz dənədir.
ADAM. Ay səni!.. Deməli, saymısınız. Şərab içirsiniz?
FOSFORLU CEVRİYƏ. Sən içirsənsə, içirəm... Dayan gətirim. Təmizləyəndə, mətbəxdə görmüşdüm. *(Şərab və iki dənə stəkan gətirir. Stəkanları doldurur. Adam şərabdan udum-udum içir. Böyük pəncərədən asiman da, ulduzlar da görünür.)* Ulduzların ulduz olmağı çox gözəldir. Ancaq işıq olmaqları... Bələdiyyənin necə fənəri varsa, bunlar da Allahın fənərləridir. Yəqin ki, göy üzünü bəzəmək üçün ulduzları göyə taxıb. Bu ulduzlar mənə müğənnilərin pullu geyimlərini xatırladır. Qardaş, müğənniləri tanıyırsan?
ADAM. Uşaq olanda, anam aparmışdı, amma dəqiq yadımda deyil.

FOSFORLU CEVRİYƏ. Anan?
ADAM. Niyə təəccübləndiniz? Mənim də hamı kimi bir anam var.
FOSFORLU CEVRİYƏ. Harda yaşayır? İstanbuldadır?
ADAM. *(Bir az fikirləşəndən sonra)* Yox, çox uzaqdadır...
FOSFORLU CEVRİYƏ. Uzaqda da olsa, bir anan var. Mənim heç vaxt olmayıb.
ADAM. Ana olmasa, uşaq doğulmaz.
FOSFORLU CEVRİYƏ. Bax, mən varam... Özümü tanıyandan körpülərin altında yatıram, dənizlərdə üzürəm. *(Asqırır)* Körpünün altında dənizin rəngi necə də gözəldir. Sapfir kimi yamyaşıldır. Qalata Körpünün altı çox dərindir. Dibinə gedib çata bilməzsən. Qarış-qarış düş, dibi görünməyəcək. Oğlan uşaqları deyirdilər ki, oranın dərinliyi yeddi minarə uzunluğundadır. Körpünün altından yosun və gəmi tüstüsünün iyi gəlir. Burdan da həm tüstü, həm də yosun iyi gəlir. Dəniz qoxusu gəlir. Dəniz və balıq iyi. Buna görə də çox sevirəm. Dənizdən eynən qarpız iyi gəlir. Mən nə vaxt ayaqlarımı dənizə sallasam, ürəyim qarpız istəyir. Bəzən zibil qayıqları dənizə zibil tökürlər. Bir də o ki cənub küləyi əsir, dəniz qoxusu ilə zibil iyi bir-birinə qarışır. Ondan sonra qağayıların oyununa tamaşa elə... Yazıq qağayılar... Mal tapıbmış kimi, o zibil yığınlarına tərəf düşüb qalxırlar. Zibillər sahilə çıxanda da küçə uşaqları qağayılar kimi onların üstünə cumurlar. O zibillərin içindən, bir bilsən, nələr çıxır... Qutular, taxta parçaları... Taxta parçalarını qurudub satırsan. Çörək pulu qazanırsan.
ADAM. Başa düşdüm. Ananınızı tanımırsınız, bəs atanızı?
FOSFORLU CEVRİYƏ. Lap balaca olanda, yanımda xəstə adam var idi. Cılız, boyu hündür idi. Bəlkə də, o adam atam idi. Çünki, xatırlayanda belə, onu sevirəm. Duyğulandım... Bilirsiniz, qardaş, mənim atam, o yaşlı, o zəif adam idi. Mənim aam olmasaydı, məni o qədər sevib, mənə yaxşı baxa bilərdimi? Mənə qaynar şabalıdlar alırdı. Özü yeməyib, mənə yedirirdi. Yatdığımız vaxt üşüyən ayaqlarımı köksünə soxub, jaketini, paltosunu, nəyi varsa, üstümə örtürdü. Sən də məni brinci dəfə gördüyün gecə paltonu üstümə örtdün. Eynən atam kimi. Atam məni axşamlar üzgüçülərin körpüdəki ən uzaq, ən səssiz yerinə aparardı. Bir gün o, körpünün altında öldü. Çox ağladım. Mən ağlayanda, körpünün altındakı manyaklar bir-birlərinə məni göstərirdilər. Yoxsa, küçə uşaqlarını düşkünlər evinə aparmaq üçün araşdırma edirdilər, onu bilmirəm. Ətrafımda polislər var idi. Nəsə səhv eləmişdim? Qaçmağa başladım. Ora-bura tullana-tullana gedirdim. Tullana-tullana ordan uzaqlaşıb, aradan çıxdım. Sonra su anbarına dırmaşdım və orda gizləndim. Gecələr ordan çıxıb, oralardan tapdığım səbət-səbət tərəvəz tullantılarının içindən qağayılar kimi yeməyə bir şey axtarırdım. Allah böyükdür. Hər qulunun ruzisini bir yerə qoyar. İstanbul həyat yeridir. O qədər qəribə ev sahibliyi edir ki... Burda burulğan kimi yaşamaq olar. Boş yerə deməyiblər ki, daşı-torpağı qızıldır. Allahın işinə qarışmaq olmaz. Alnımıza nə yazılıb, onu yaşayırıq. Qismətimizdə nə varsa, taparıq. Hələ bu işin o tərəfi də var. Nədən məhrum olmusuqsa, o tərəfdə hamısını verəcək. Ürəyimizdən nə keçsə, hamısı qarşımıza gələcək. Yemək-içmək... Bəyoğlu mağazalarındakı lələkli, çiçəkli papaqlar. Qiyamət günü dünya ovucun içi kimi dümdüz olacaq. Cəsədlər kəfənləri ilə məzardan qalxacaqlar. Sən oxumuş,

ziyalı adama oxşayırsan. Necə olub ki, bunlar haqda heç nə bilməmisən? Yoxsa, sən bunlara inanmırsan? İnanmırsansa da, necə belə yaxşı adam ola bilərsən?! Tövbə elə! Cənnətə inanmasaq, bu dünyada nəyə ümid edərik?!
ADAM. Mən də cənnətə inanıram. Amma mənim cənnətim o dünyada deyil. Burda yaratmaq üçün mübarizə aparırıq. Bütün insanlar üçün. Adamları ingilis, alman, amerikalı, fransız, italyan, rus, türk, rum, kürt, erməni deyib, ayırmaq düzgün deyil. Əsas məsələ, onların varlı, ya da kasıb olmalarındadır.
FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Cənnəti yaradacaqmış... İnsanları da ayırmırmış... Bu kübar qardaşın dedikləri mənim bildiklərimə ziddir...

YER ÜZÜ CƏNNƏTİ
Bir axunddan eşitdim
Cənnətdən danışdı mənə.
Nə istəsən, yeyəcəksən,
Nə istəsən, geyəcəksən.

Xəstəlik, göz yaşı yox,
Otuz üç yaşındasan.
Ayrılıq, ölüm də yox,
Həmişə bu cür yaşayacaqsan!

Şərab axan çeşmələr,
Portağallar, bananlar.
Təki sən istəyəsən,
Uzansan, alacaqsan.

Qadınsansa, qılmanlar,
Heç düşməyən qamışlar.
Kişisənsə, hurilər,
Hər dəfəsində pozulan.

Əsla, yoxdur yorulmak,
İşləmək və tərləmək.
Çörək əldən, su göldən, (Hər şey, hər şey havayı)
Dayanmadan çoxalan.

Şirniyyatların rəngbərəngi,
Börəklərin dadlısı.
Yedikcə azalmayan
Əksinə, hey çoxalan.

Maşınlar qulluğunda,
İstədiyin yerə get.

Görmək istəyirsənsə,
Atanın yanındasan.

Bizim adam cənnəti
Dünyada quracaqmış.
Unutmasın basdırmanı,
Yedikcə hey çoxalan.

ADAM. Amma bizim cənnətimizdə tənbəllik yoxdur. Hamı bacardığı qədər işləyəcək. Cevriyə, siz yaxşı qızsınız.
FOSFORLU CEVRİYƏ. Qardaş, amma mən sənə yalan danışdım. Qapının qarşısında sənə demişdim ha, xəstəxanadan təzəlikcə çıxmışam, yalan idi. *(Tamaşaçılara)* Sonra narkotik, sürgün məsələsini də ona danışdım. Bir müddət dayandı, sonra dedi ki...
ADAM. Eləysə, polisdən qaçmaq məcburiyyətindəsiniz.
FOSFORLU CEVRİYƏ. Eynən sənin kimi, qardaş... Bunu çoxdan başa düşmüşəm.
ADAM. Başa düşmədim...
FOSFORLU CEVRİYƏ.

NARAHATSAN
Narahatsan, gözəl qardaşım,
Qulaqların həmişə səsdə.
Sözüm səndən uzaqdır,
Qanadların həmişə açıqdır.

Bunu çoxdan hiss etdim, qardaş,
Şübhələnirsən hər şeydən.
Kəsərəm bu bığları,
Səhvim var isə əgər.

Pərdələri bağlamamış
İşığı da yandıra bilməzsən.
Qapı döyülən kimi
O saat durub aça bilməzsən.

Gətirdiyin bağlamaları
Açarsan qorxu ilə həmişə.
Adını da demədin,
Mən axmağammı, qardaş?!

Anam arvadım olsun ki,
Sən qaçırsan polisdən.

Gizlətsən də anlayıram
Polisdən qaçırsan sən.

Sənə bir şey deyə bilərəm?
ADAM. Deyin, əlbəttə...
FOSFORLU CEVRİYƏ. Mənə “siz” deyirsən, ha... Nə yalan deyim, çox xoşuma gəlir. Desən ki, niyə, mənimlə heç kim sənin kimi nəzakətlə rəftar eləməyib. *(Adamın gülümsədiyini görərək)* Səndən bir şey də soruşacağam, amma əsəbləşmə. Yaxşı, qardaş? Sənə o gözəl qalstuku... Arvadın yollayıb, elə deyil? Demə ki, üzüyüm yoxdur. Bilirəm! Bəzi kişilər o lənət halqasını taxmırlar.
ADAM. Artıq mənim arvadım yoxdur. İki ildir ki, ayrılmışıq. Bəli, bu qalstuku mənə çox sevdiyim bir qadın göndərib. Demişdim ki, anam uzaqlardadır. Yadınızdadır? Mən də sizə yalan demişəm. Yox, İstanbuldadır. Ətrafın təhlükələrlə dolu olmasına baxmayaraq, onu dünən görmüşəm. Yumaq kimi ağappağ saçlarını öpüb iylədim (qoxladım).

*(Birdən çöldən ayaq səsləri eşidilir. Qapı üç dəfə döyülür. Adam durub qapını açır. Kərimdir. Kərim susur.)*

ADAM. Danış... Eşitməyi problem deyil.
KƏRİM. İzini tapmaq üçün ananı izləyirlər. Allah tərəfi, içəriyə girəndə, səni tapa bilməyiblər. Amma ananı aparıblar. Ora getməməliydin. Day bu qızı da göndər, oğul. Elə indi!

*(Kərim gedir)*

ADAM. *(Vurnuxur, təlaşlanır)* Eşitdiniz. Bu saat burdan gedin. Bir də qətiyyən bura gəlməyin. Siz də məhv olmayın. Baxın, mənim haqda “itkin” (qaçaq) qərarı var. Ələ keçsəm, məni məhv edəcəklər. Asacaqlar. Bunu heç yadınızdan çıxartmayın. Məni, buranı hardasa ağzınızdan qaçırsanız, məni məhv edərsiniz. Başa düşdünüz?
FOSFORLU CEVRİYƏ. *(Ağlayaraq)* Niyə asırlar, qardaş?
ADAM. *(Bir müddət susur)* Düşündüyüm üçün... Daha gözəl yaşanılası dünyanı xəyal elədiyim üçün, Cevriyə.
FOSFORLU CEVRİYƏ. *(Səmimiyyətlə)* Səni öldürənlərin əlləri qırılsın! Səni heç vaxt görməyim, amma təki sən yaşa!
ADAM. Qalmağa yeriniz varmı?
FOSFORLU CEVRİYƏ. Sən məni fikirləşmə, qardaş. Göyün altındakı hər yer mənim evimdir.
ADAM. *(Cibindən bir neçə dənə kağız pul çıxarır. Əlinə güclə tutduraraq)* Almasanız, meyidimi görün! İnad eləməyin! Siz də vaxt itirməyin. Mən gedəndən sonra, siz də o dəqiqə çıxın. *(Paltosunu geyir. Cevriyəni qucaqlayır, yanaqlarından öpür və tez çölə çıxır.)*

FOSFORLU CEVRİYƏ.

ADAM KİMİ ADAM
Bu adam başqa adam,
Adam kimi bir adam.
Oxşamır başqalarına,
Ürəyi eynən atam!

Kimsənin göstərmədiyi
Sevgi, hörmət ondadır.
Demədi qəti mənə
"Qıvrıl görək, Fosforlu".

Yedirib-içirdi, yatdırdı,
Saldı hərarətimi.
Sağaltmamışdan qabaq
Küçəyə qoymadı məni.

Başqalarına oxşamır,
İstifadə eləmir.
Adam kimi bir adam,
Ürəyi eynən atam.

***P ə r d ə***

## İ K İ N C İ  H İ S S Ə

SUAT DƏRVİŞ. *(Yazı maşinkasının arxasında)* Hara gedəcəyini bilmirdi. Elə bil ki, İstanbul kiçilmişdi. Bir yerdə dayana bilmirdi Cevriyə. Ordan-ora qaçırdı. Bir saat əvvəl Ədirnəqapıda, bir saat sonra isə Maçkada, Taşlıqda olurdu. Evindən qovulmuş pişik kimi çaşqın və bədbəxt idi. Elə hey o Adamı fikirləşirdi. Hər yerdə idi... Yeganə kişi idi ki, o, sərxoş dodaqları ilə dodaqlarını öpməmişdi. Bütün gecəni o Adamı fikirləşərək, küçələrdə gəzdi. Yanından keçən hər kişidə ondan bir hissə axtardı. Sonra parkların birində skamyada yatıb qaldı... Oyananda, elə bil ki, günəş düz başında idi... Yenə də əsirdi...

*(Fosforlu qalxır. Gəzəndə, qabaqdan əlində taxta çamadanı ilə gələn Əsgərlə qarşılaşır.)*

ƏSGƏR. Məni tanıdın?

FOSFORLU CEVRİYƏ. Tanımamış olaram?! Hara belə, aslanım?
ƏSGƏR. İcazə qurtardı. Bu gün yerimdə olmalıyam.
FOSFORLU CEVRİYƏ. Pulunu alıb, əvəzini verə bilmədik. Heç kimə borclu qalmaq istəmirəm. Haram mal yemərəm.
ƏSGƏR. *(Səhv başa düşür)* Bəs, yenə ələ keçsək?
FOSFORLU CEVRİYƏ. Elə yox. *(Cibindən çıxartdığı pulu uzadır)* Al, götür. Mən ölüm, götür.

*(Pulu alıb, utanaraq gedir.)*

FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Qərarımı verdim. İndi Sünbül dudunun yanına gedəcəyəm. Evi Qurtuluşdadır. *(Tez-tez yeriyir)* Amma ağlımda o Adamdır. Bu, necə işdir, ya Rəbbim?! Sən ağlımı qoru. Sünbül dudunun qapısını döydüm.

*(Bir masada bir qadın və bir kişi içki içirlər. Qapının döyüldüyünü eşidən kimi, o saat namaz vəziyyətində dayanırlar. Sünbül dudu qapını açır.)*

SÜNBÜL DUDU. *(Əməlli-başlı iki bükülüb. Elə bil, yerə yapışıb.)* Cevriyəm, mənim balam. Ah, üzünü görək!.. Gözlərimin bəbəklərinə inana bilmirəm. Ay arvad, neçə vaxtdır hansı cəhənnəmdəsən?
FOSFORLU CEVRİYƏ. Bundan da betər yerdəydim, Sünbül xala. Əvvəlcə, həbsxanada, sonra da sürgündə olmuşam.
SÜNBÜL DUDU. *(Elə bil ki, başa düşmür)* Sənin işin zinadır. Heç adamı, plandan artıq iş gördüyü üçün həbsə atarlar? Qız, sən başına nə iş açmısan? Yoxsa, oğurluq eləmisən?
FOSFORLU CEVRİYƏ. Qələt eləmə. Narkotik səbəbli tutuldum.
SÜNBÜL DUDU. Demişdilər, inanmamışdım. Sənin narkotiklə nə işin var?
FOSFORLU CEVRİYƏ. Bildiyin kimi deyil, e, Sünbül xala. Soysuzun biri əlimə bağlama vermişdi, vəssalam.

*(İçəridəkilər namaz qılmağa davam edirlər.)*

SÜNBÜL DUDU. Ay ağzının düz ortasına qurban olduğum südəmər uşaq, ağzından hələ də süd iyi gəlir? Sən alçağın fırıldağını başa düşməmisən? Məgər, sən Qalatanı tanımırsan?
FOSFORLU CEVRİYƏ. Sünbül xala, qapının ağzında əlli min dənə söz deməkdənsə, məni içəri dəvət elə də.
SÜNBÜL DUDU. Ah, ciyər param! Allah məni bu yaşlarımda, gənc ikən dul qoydu. Bu səbəbdən də başımda ağıl qalmayıb. Sən burada heç dəvət gözləmə. Keç görək.
FOSFORLU CEVRİYƏ. *(Namaz qılanları göstərərək)* Bu nədir, Sünbül xala. Daha müştərilərinə məcburən namaz da qıldırırsan?
SÜNBÜL DUDU. Artıq polislərə qarşı tədbirliyik. Qapı döyüləndə, namaz

qılırmış kimi vəziyyət alırlar. Başa düşürsən? Hə, qızım, hə, oğul, işinizdə olun.

*(Qadınla Kişi namaz xalçalarını yığışdırıb, içəri otağa keçirlər.)*

FOSFORLU CEVRİYƏ. *(Sobanın yanına keçib əyləşir)* Sümüklərim bir az isinsin.
SÜNBÜL DUDU. Amerikan viskisi içirsən? Sən burada olmayanda, buralar dəyişdi Cevriyəm. İstanbula amerikalılar gəldi... İndi müştərilərin zövqü də dəyişib. Hərif Hacı ağa. Cəhənnəmin bucağından gəleeer. Amma qardaş oğlu amerikanın viskisi, cins-mins istəyeeer. O gün biri gəlmişdi. Canlı heyvan al-veri ilə məşğuldur. İndi qəssabları heyvanlara yönəldənin, cəlb edənin adı da dəyişib. Canlı heyvan taciri olub.
FOSFORLU CEVRİYƏ. Nə gözəl danışırsan, Sünbül xala.
SÜNBÜL DUDU. Sünbül Dudu deyib keçmə. Uzaq görən bir arvadam. Zaman sənə uyğunlaşmırsa, sən zamana uyğunlaş deyiblər. Fosforlum, sən mənim ürək paramsan. Səni bir müştəriyə təqdim eləyəndə, içim dəli bir qururla dolur. Budur, bu da Qalatamız, Çeşmə Meydanımız, Ədirnə qapı, Topqapı və Yenişəhərin yetişdirdiyi növcavan, deyirik. Bu peşədə çox əzilib-büzülən görmüşəm. Amma sən İstanbul küçəsinin özüsən. Aralarında sənin qədər çox istədiyim ikinci adam yoxdur.
FOSFORLU CEVRİYƏ. *(Birdən ağlamağa başlayır)* Sünbül xala, adamı necə xoşbəxt eləməyi bilirsən. *(Əllərini qucaqlayıb öpür)*
SÜNBÜL DUDU. Ah, ağlama Fosforlum. Mənim də ürəyimi üzmə. Yavruş... Niyə ağlayırsan axı, Cevriyəm?
FOSFORLU CEVRİYƏ. Xala, bir il həbsxanada olmaq asandır? Sənin üçün, Barba üçün, Top Məlahət üçün o qədər darıxmışam ki...
SÜNBÜL DUDU. Mən içəridə tez sənin üçün bir az çərəz hazırlayım. Elə söhbətin dadından doymaq olmaz.
FOSFORLU CEVRİYƏ. Sən niyə, Sünbül xala?! Marik hardadır?

SÜNBÜL DUDUNUN MAHNISI
Ah, övladım, eşitmədinmi,
Bir səhər getdim yanına,
Əli ürəyinin üstündə...
O, gözümün bəbəyi idi.
Mənim qayınanam deyil,
Sanki, mən onun övladı idim...
Bu, dəfn mərasimidirmi?
Bir şan-şöhrətlə oldu ki...
Bütün Qalata camaatı gəldi.
Mağazalar bağlandı,
Hamı göz yaşı tökdü.
O, mübarək bir qadın idi.
Təəccüblənməyə ehtiyac yoxdur,

Dəri qəfəsində bir can varsa,
Əzarayıl onu bizdən alar.

*(Mahnı oxuyaraq çıxır.)*

FOSFORLU CEVRİYƏ. *(Gözləri yumulmaq üzrədir. Tamaşaçılara)* Yenə o Adam – Kişi qarşımda idi. Qoltuğumun altına termometr qoyurdu.

QARA SEVDA
Küçələrdə ac-yalavac
Dolaşan bir pişiyəm.
Tut əlinlə, qaldır,
Köksündə itir məni.

Elə üşüyürəm ki,
Dişim-dişimə dəyir.
Qucaqlamağın bəsdir mənə,
Bir də əlimdən tutmağın.

Sənə qurban olaram,
İçimi isit mənim.
İstiliyinlə anla,
Mərhəmətinə bük məni.

Dodaqlarından tökülsün
Tanımadığım dünya.
Xəyalı belə, gözəldir,
Gözlərinlə etibar ver. *(Fikrə gedir)*

SÜNBÜL DUDU. *(Əlində məcmeyi, daxil olur. Qışqıraraq)* Bu da sənə aslan südü. Qız, yavruş, yoxsa, sən yatmısan?!.. *(Məcmeyini qoyur)* Cevriyə, daha bizə tez-tez gəl. Həmişə o işdən ötrü gəlməyinə ehtiyac yoxdur... Tez-tez gəl, yoluxmaq üçün. Onsuz da sən sözünün üstündə dayanan arvadsan. Həmişə Mayrikə də deyirdim. Cevriyəm yaxşı qızdır. Namusludur, təmizdir. O, təkcə ismətli deyil. *(İçirlər)*
FOSFORLU CEVRİYƏ. Ruhu şad olsun.
SÜNBÜL DUDU. Nur içində yatsın!
FOSFORLU CEVRİYƏ. Sünbül xala, canım mayak, müşəmbə olsa, sənin üçün yanar, vallah. Mən sürgündən qayıtdım, amma hələ polisdən birdəfəlik canımı qurtara bilməmişəm. Hələ ortalıqda sərbəst gəzə bilmirəm. Sən mənə nələrsə hazırlaya bilərsən? Mən gözə görünmədən. Başa düşdün?
SÜNBÜL DUDU. Dənizdə qum, məndə hoqqalar çoxdur, Fosforlum. Elə günü sabah axşam.

FOSFORLU CEVRİYƏ. Gündüz olsa, lap yaxşı olar. Axşam Barbanın yanına gedəcəyəm. Allahsız üçün darıxmışam. Yaxşı adam pis sözü saxlamaz. Bolu məsələsini də bilməlisən. Həbsdən sonra da bir illik Boluya sürgün olunmuşam.
SÜNBÜL DUDU. Sözün əsli, sən Boluda iqamətdə məmur idin. Belə desən, səni məmur bilib, daha çox etibar edərlər. *(Asta-asta gülür)*
FOSFORLU CEVRİYƏ. Sünbül xala, zarafatın yeri deyil. Getdim, amma qaçıb gəlmişəm.
SÜNBÜL DUDU. *(Zarafatla)* Allah, Allah! Boluda kişilər qabaqlarındakı dükanı bağlayıblar?
FOSFORLU CEVRİYƏ. Əslində, mən İstanbuldan uzaqda yaşamıram, e, xala.

*(Qapı döyülür.)*

SÜNBÜL DUDU. İnşallah ki, oğraşın biridir. *(Qapını açır. Hacı içəri girir.)* Gəl görək, Hacı. Çoxdandır görünmürsən... Keç görək. Siz tanış olmusuz?
HACI. Sünbül xala, heç tanımış olaram?! Bu, Fosforludur. Barbanın meyxanəsində iki dəfə qarşılaşmışıq. Oynamağa həsrət qaldıq. Səni çoxdandır ki, görə bilmirəm. Fosforlu, necəsən?
FOSFORLU CEVRİYƏ. Sağ ol, Hacı qardaş.
SÜNBÜL DUDU. Səndəki Rum qızı necədir?
HACI. Onu heç bura qarışdırma. Heysiyyətsiz (namussuz) çıxdı.
SÜNBÜL DUDU. Danış görək.
HACI. İki gün qabaq gəlmişəm İstanbula. Qurutuluşdakı evə həsrətlə qaçdım. Nə görsəm, yaxşıdır?! Rum qızı evə bir oğlan gətirib. İçki (rakı) süfrəsi qurulub. Arvad mənim evimdə mənim pulumla kef eləyir. İkisini də tutub çırpdım. İkisini də lümlüt qapıdan çölə qoydum. Məhəllədəkilər güclə əlimdən aldılar.
SÜNBÜL DUDU. Sənin kimi igidə bu hərəkəti etmək olmarmı?!
HACI. Olmaz, amma elədilər.
SÜNBÜL DUDU. *(Fosforluya göz edərək)* İgidim mənim, qəm yemə. Sənə ondan da yaxşıları tapılar.
HACI. Beş ay yarımlıq kirayə haqqını bu başdan vermişdim. Sünbül xala, olar mən girim dəstəmaz alım?
SÜNBÜL DUDU. İgidim, hələ soruşursan da?! *(Hacı içəri keçir)* Cevriyəm, bu, nə bəxtdir, qız. Qismət ayağına gəlib.
FOSFORLU CEVRİYƏ. Xala, mən aşna həyatında yoxam.
SÜNBÜL DUDU. Sən başına hava gəlib? Yoxsa, ağlın özünü idarə eləmir?! Sevdalısan? Hərif Qurtuluşda hər şeyi yer-yerində, tam hazır bina mərtəbəsi açıb. Aşağı mərtəbə olsun... Qaracaəhməd qəbiristanlığından, Daşqışlaqdakı sahələrindən də pisdir?
FOSFORLU CEVRİYƏ. Onu demək istəmirəm. Bir adama bağlanıb dayanmaq bizlik deyil.
SÜNBÜL DUDU. Sən Rum qızları kimi cahilsən? Heç elə avamlıq eləyərsən? Hansı yollardan keçmisən... Heç belə asanlıqla da geri çəkilmək olar?! Ayağına

qədər gəlib. Səni kürklərin içində xəyal eləyirəm. Üstəlik, Argentinadan gələn... Qışın ortasında belə əllərin dona-dona ovçu iti kimi yollarda niyyət eləmək heç sənə yaraşırmı? Bu, bir fürsətdir. Hacını içirək. Sonra yuxarı çıxarsınız. Hərifi elə razı sal ki, ağlı başından çıxsın. Səni dalına alıb, çıxsın Qurtuluş yoluna. Sonrası əyləncədir... Hər şey havayı...

FOSFORLU CEVRİYƏ. Xala, gərək fikirləşim. Bu hərif həm pulumuzu versin, həm də bizi sərbəst buraxsın, bu, qeyri-mümkündür. Bir də ki, nə bilirsən ki, aşnalıq üçün aldadacağam?

SÜNBÜL DUDU. Aldada bilməsən, nə xeyri olacaq, Fosforlum?.. Qız, oğlan-qız bakirəliyini hədər eləyəcəksən? Əminəm ki, ağlını başından alacaqsan. Amma özünü bir az naza qoy, qiymətə mindir, sonra sat. Necə? Həvəsləndir, həvəsləndir, çəkil. O saat vermə. Gərək kişilərə çox kələk gəlib oynadasan. Amma ağ eləmək lazım deyil. Çünki çox naz aşiqi bezdirir. Keçmişdə mənim qapımın ağzında on səkkiz yaşında bir həkim ürəyini nişan almışdı. Sonradan eşitdim ki, oğlanın anası: "Səbəb olan Sünbül Dudunun beli bükülüb, üzü torpağa baxsın. Torpaqdan başqa heç nəyi gözü görməsin" demişdi. Bax, indi belimin ağrısından təsbeh böcəyi kimi qıvrım-qıvrım qıvrılıb, iki qat olmuşam. Üzümdən torpaqdan qalxmır. İndi Hacı gələndə, bir bahanə ilə çölə çıx. Mən onu sənə meyil etməsi üçün hazırlayaram. Başa düşdün?

FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Deyəsən, dedikləri ağlıma batdı. Heç olmasa, bir müddətlik. Niyə də olmasın?!

*(Hacı girəndə, Fosforlu çıxır. Qapı yarıaçıq qalır. Danışılanları eşidir.)*

SÜNBÜL DUDU. Hacı, sən ürəyini buz kimi saxla. Sən əlin boş qalacaq, nə də qucağın. Sənə eləsini tapacağam ki, deyəcəksən, yaxşı ki, bu Rum qızı mənə xəyanət eləyib.

HACI. Kimi tapacaqsan?

SÜNBÜL DUDU. Orası mənlikdir. Dediyimi elə, bəsdir.

HACI. Sən bir az acıqlı, dəlisov qadınsan, Sünbül xala. Amma sən də bilirsən ki, torbadakı pişiklə dənizdəki balığın qiymətində mübahisə eləmək olmaz. Ankara, Van deyirsən, pulu ödəyərik, içindən qotur, tüklü pişik çıxır. Makaron balığı, mərcan, xanı balığı deyirsən, qabağımıza palıd qozası, ata şeytanqanqalı çıxır. Sən heç balıq bazarına getmisən? Donuz əti də alsan, satıcı bıçağı ilə kəsib, sənə dadına baxdıracaq. Əlindəkilərdən gətirərsən, dadına baxıb, ən yaxşısını taparıq.

SÜNBÜL DUDU. Düz deyirsən, Hacı. Üstəlik, süd ağzını yandırıb deyə, qatığı üfürə-üfürə içirsən (suyu da üfürə-üfürə içirsən). Amma burnunun ucundakını görmürsən. Fosforlunun adını eşitməmisən?

HACI. Fosforlunun adını eşitməyən var ki?! Amma mənimlə sevgili (aşna) olmaq istəyər? Bir də ki, o, ələ-ovuca sığmayan, öhdəsindən gəlmək qeyri-mümkün olan arvaddır. Yataqda da olduqca hünərlidir (bacarıqlıdır). Dadına baxarsan, görərsən ki, gop basmıram. Əsas odur ki, işə səbrlə başlayasan. *(Bağırır)* Harda qaldın, Cevriyəm?

FOSFORLU CEVRİYƏ. *(Gəlir)* Buyur. Əmr elə.
SÜNBÜL DUDU. Sizə indi elə süfrə açım ki, elə bilsinlər Mayrik hazırlayıb. Siz də elə söhbət eləyin ki, Rum qızı çatır-çatır çatlasın. *(İçəri keçir.)*
FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Yedik, içdik. Özümü Hacı ilə aşnalığa öyrəşdirirdim. Bir gecəlik olsaydı, nə vardı ki. Hacı Şərq tərəflərdəndir. Ayda təxminən bir həftə Şərqə gedəcək. Heyvan almağa. Bəzən on gün qalacaq. Bu həriflə heç alınar? Elə bil ki, bizim Adam Hacının çiynindən baxırdı. Əstafurullah! Ağlımı əlimdən alma. Əslində, Sünbül xala haqlıdır. Hər şey müftə, havayı. Bir də polis qorxusu da olmaz. Gördüm ki, bacara bilməyəcəyəm, xoşluqla ayrılaq. Bəlkə, Sünbül xala bu hərifə başqasını tapar. Mənə də heç nə deməz. Elə bil ki, ağıla batandır. Bir də Adamı ətrafında dəqiqədə bir yol görməsəm... Onda hər şey daha yaxşı olacaq? Yeyib-içirik, amma fikrim Adamdadır. Nə olub, görəsən? Ona heç nə olmamalıdır. Qabağına bax. Ağlını başına yığ. Otağa keçdik. Elə sevişdim ki, Hacının ağzı-burnu bir-birinə qarışdı. Yatdı qaldı. Çölə çıxdım.

*(Arxasınca Hacı çıxır.)*

HACI. Mənim sevgilim ol. Yaşadaram səni!..
FOSFORLU CEVRİYƏ. Axşam Barbanın meyxanəsinə gəl. Ordan, bəlkə, evinə getdik. *(Tamaşaçılara)* Küçəyə çıxdım. Yaxşı eləyirəm, ya pis? Bunu zaman göstərəcək. Küçələrdə basabas idi. Elə bil ki, Adam çiynimin üstündə mənimlə addımlayırdı. Bu nədir, İlahi? Heç belə bir şey başıma gəlməyib. Dəli oluram, nədir?! Yola necə çıxdım? İstanbulu qarış-qarış gəzdim. Gülhanə Parkında da oturdum. Amma yan-yörəmdə elə hey o Adam var idi. Yoxsa, ağlımı itirirəm? Barbanın meyxanəsinə nə vaxt gəldim? Meyxanəyə girəndə, Barba piştaxtanın qarşısında nə isə eləyirdi. Başını qaldırıb baxdı. Birdən qocanın üzü güldü.
BARBA. Vay, Fosforlu, bu, sənsən? *(Fosforlu Barbanı qucaqlayıb öpür)* Neyləyirsən, qız?!
FOSFORLU CEVRİYƏ. Səni öpürəm, şəkərim. Sənin üçün darıxmışdım.
BARBA. Həmişə qızlar Barbaya könüllüdürlər. Nə vaxt ki qızların dostu yoxdur, qucaqlayıb öpərlər.
FOSFORLU CEVRİYƏ. Mən heç səndən başqasına könül verərəm?!
BARBA. Otur görək, Fosforlu. Hər şeyi eşitmişəm, həbsxananı, sürgünü... Sonra qaçıb İstanbula gəldiyini... Kimdən eşitdiyimi soruşma. Demərəm.
FOSFORLU CEVRİYƏ. Kimdən?
BARBA. Top Məlahətdən. Bu gecə yenə gələcək. *(Bir qədəh doldurub uzadır)* Əvvəlcə, bir dənə də mənim əlimdən iç.
FOSFORLU CEVRİYƏ. Bəs, ikinci olsa?
BARBA. Kredit.
FOSFORLU CEVRİYƏ. Ayyy, çox sağ ol, Barba. Ortalıqda uşaqlardan heç kim yoxdur?
BARBA. Bir azdan yığılacaqlar. Bir az qabaq Fantomas Atıfla Zombi Rəcəb gəldi. Amma dayanmadılar. Ayaq üstə iki-üç qədəh müalicə olunub getdilər (yəni

içdilər). Bu axşam sən neyləyəcəksən?
FOSFORLU CEVRİYƏ. Barba, bədənimi satıb, varlanacağam. Əgər qismətimizdə nəsə varsa, qarşımıza çıxacaq. Olmasa, səhərə yaxın gəlib, pəncərəni döyərəm.
BARBA. Buyur, Fosforlu. Bizim otaq imperial oteldir. Kimdir bu qanunsuz milyonçu?
FOSFORLU CEVRİYƏ. Hacını tanıyırsan? İki gün əvvələ qədər bir Rum qızı ilə sevgili idi. Qurtuluşda. Rum qızı xəyanət eləyib.
BARBA. Bildim, bildim. Hacı ilə nə işin var?
FOSFORLU CEVRİYƏ. Dünən gecə Sünbül xalanın evində xəlvətcə olduq. Yəqin kişinin, dadımdan xoşu gəlib ki, onunla sevgili olmağımı istəyir. Ortada Rumlu qıza vurulan şillə də var. Bu hərif həm bizi bəsləyəcək, həm də icazə verəcək ki, onunla məzələnək. İnanmıram. Bir azdan bura xəbər-ətərsiz gəlib soxulacaq. Yeyib-içəcəyik. Guya ondan sonra da evinə gedəcəyik. Amma qərar verə bilmədim.
BARBA. Küçələrdə veyillənməkdən yaxşıdır, Fosforlu. Heç olmasa, özünə məxsus bir dam altı olar. Əlavə də pulun-paran, hər şeyin olar.
HACI. *(Gəlir)* Axşamınız xeyir! *(Masanın arxasında əyləşir)* Duran kimi o saat gəldim, Fosforlu. Dedim, gözlətməyim. Bura bax görüm, Barba. Mənə ciyər kababı... Fosforlu, sən nə istəyirsən?
FOSFORLU CEVRİYƏ. Mənimkini Barba bilir.
HACI. Bilirsən, niyə ciyər kababı istədim?! Dedim ki, Fosforlu üçün ciyərim kabab olub. *(Pis-pis gülür)* Sünbülün tərifədiyindən də artıqsanmış...
FOSFORLU CEVRİYƏ. Sağ ol, qardaş.
HACI. *(Barbanın gətirdiyi rakını götürərək)* Qız, hələ də “qardaş” deyirsən?
FOSFORLU CEVRİYƏ. Bundan sonra deməərəm, qardaş.
HACI. Birlikdə olmağımızın şərəfinə içək, Fosforlu.
FOSFORLU CEVRİYƏ. Şərəfə!
HACI. Bu gecə evimizə gedərik. Qaldığımız yerdən əyləncəyə davam edərik. Sonra səhər duranda, evdən çıxarıq. Zərgər dostum var. Fosforlu, sənə neçə dənə bilərzik alım? Bu boyna bir dənə də beşlik lazımdır.
FOSFORLU CEVRİYƏ. Qalatada qoluna bilərzik, boynuna beşlik qızıl taxsan, kimsə adamın ya qolunu, ya da boynunu kəsər.
HACI. Səni kim görəcək ki?! Ancaq mənimlə evdən çölə çıxarsan. Mənim yanımda sənə artıq-əskik baxanı da şişləyərəm, vallah!..
FOSFORLU CEVRİYƏ. Hər gün yanımda olacaqsan? Hər gün paxlava-börək yesən, bezərsən.
HACI. Mən səndən ölənə qədər bezmərəm, Cevriyə.
FOSFORLU CEVRİYƏ. Qardaş, sən evlisən, elə deyil?
HACI. Evliyəm. Böyük qardaşımın arvadı idi. Məndən yaşca böyükdür. Böyük qardaşım rəhmətə gedəndən sonra, adət-ənənəyə görə, bizi evləndirdilər. Beş ildir ki, bacı-qardaş kimi olmuşuq. *(Gülür)* Qız, niyə fikrə getdin? O gözəl gözlərinə qurban olum. Məni çarpayıda öldürmüşdün... *(Əli ilə Fosforluya guya zarafatyana vurur.)*

FOSFORLU CEVRİYƏ. Elədirsə, indi niyə sağ-salamatsan? *(Dəfələrlə Hacını vurur.)*
HACI. Fosforlu, sən məcazilik başa düşmürsən?

*(Top Məlahətlə Yeddibəla Gülsərən qapıdan içəri girir.)*

FOSFORLU CEVRİYƏ. Topaaaç, Gülsərəəən!
TOP MƏLAHƏT. Sən haralardasan, qız?
FOSFORLU CEVRİYƏ. Gəlin çörək yeyin.
HACI. Süfrəmizi şənləndirin.

*(Otururlar)*

TOP MƏLAHƏT. Qız, demək olar ki, on gündür yoxsan.
FOSFORLU CEVRİYƏ. Danışaram. *(Top Məlahət, Yeddibəla Gülsərən əllərini uzadıb, Hacı ilə görüşürlər.)* Top Məlahət... Yeddibəla Gülsərən... Bu da Hacı...
HACI. Rakı içirsiniz?
TOP MƏLAHƏT. Xəstədən soruşarlar ki, şorba içirsən?!
HACI. *(Barbaya tərəf qışqırır)* Bizə iki bakal rakı süz.

*(Dəli Marika daxil olur. Bara yaxınlaşır. Yenə sərxoşdur.)*

HACI. Nə vaxt görsəm, sərxoşdur. Bu, niyə belə içir?
YEDDİBƏLA GÜLSƏRƏN. Bunun bir dostu var imiş... Kimsə öldürüb... Onu Sultanəhməddə asıblar. O gündən içir...

*(Hacı üz-gözünü turşudub, əli ilə tualeti işarə edib gedir.)*

TOP MƏLAHƏT. Bu kimdir?
FOSFORLU CEVRİYƏ. Üzümünü ye, bağını soruşma. Mənə Qurtuluşda ev təşkil edir. Borudan bir xəbər yoxdur? *(Topla Gülsərən bir-birinə baxırlar)* Danışın da...
BİRLİKDƏ.

BORU AYTƏN
Küçədə doğulanların
Küçədədir ölümləri.
Gedəmmədim məzarına,
Heyif, heyif Boru Aytənə.

İncə-incə incəldi,
Süzüm-süzüm süzüldü.
İnim-inim inlədi,
Heyif, heyif Boru Aytənə.

Kimsəsizlər evinin uşağı,
Aytənim, Boru Aytənim.
Məscid həyətindən başladı,
Polis şöbəsində sona çatdı.

FOSFORLU CEVRİYƏ. Ay səni, Boru!..

*(Fosforlu dayanmadan içir. Üstəlik, birnəfəsə)*

BARBA. *(Fosforlunun qulağına doğru əyilərək)* Ac qarnına içmə.
TOP MƏLAHƏT. Hardaydın sən?
FOSFORLU CEVRİYƏ. Bir yerə sığındım. Tanımazsınız. Bilirsən ki, onsuz da xəstə idim. Mənə bir həftə baxdı. Hər şey havayı...
TOP MƏLAHƏT. Kiminləsə tutuldun? Maraqlı gəldi, qız... Bizdən nə isə gizlədirsən. Biz çox görənlərdənik, ha, Fosforlu, təcrübəliyik!..
FOSFORLU CEVRİYƏ. Kimsə sənə təmənnasız kömək edir, yemir, yedirir, sağaldır. Onun haqqını necə ödəyərsən? Qadınlığımızdan istifadə etməyə cəhd eləməz, hələ üstəlik, səninlə xanım-xatın kimi rəftar edər... Elə bir insana neyləmək olar, Top?
YEDDİBƏLA GÜLSƏRƏN. Bu dünyada elə birisi var ki? Bu, kişidir?
TOP MƏLAHƏT. Üstəlik, bütün bunları səndən istifadə etmədən eləyib.
FOSFORLU CEVRİYƏ. Hə.
TOP MƏLAHƏT. Ya çatışmamazlığı var, ya da onun kişiliyində problem var. Cevriyə, sən nə demək istəyirsən? Dayan görək, qız! Yoxsa, kiməsə qəlbini vermisən?!..
FOSFORLU CEVRİYƏ. Bizdə elə göz var?
TOP MƏLAHƏT. Elədirsə, bu qəribə danışıq nədir?
FOSFORLU CEVRİYƏ. Əşşi, elə-belə dedim.
YEDDİBƏLA GÜLSƏRƏN. Qız, sən əməlli-başlı sərxoş olmusan.
FOSFORLU CEVRİYƏ. Bu gecə əməlli-başlı özümü itirəcəyəm.
TOP MƏLAHƏT. İtir. Amma de, səbəbini bilək. Biz sənə bacıdan da yaxınıq.
FOSFORLU CEVRİYƏ. Mən getməliyəm, Top. Bu saat gözdən itib, sovuşmalıyam. Bizim Hacı ilə siz məşğul olarsınız. *(Yırğalana-yırğalana,ləngər vura-vura qapıya tərəf gedir.)*
HACI. *(İçəri girəndə, bu sözləri eşidib)* Hara gedirsən? *(Belindən tutur, təəccüblüdür)*
FOSFORLU CEVRİYƏ. Tez ol get... Məni tək burax.
HACI. *(Sakitcə, amma hədələyərək)* İçəridəki süfrəni sən fikrini dəyişib qaçasan deyə hazırlamışıq? Yoxsa, on beş yaşındakı təzələr kimi naz eləməyə başlamısan?
FOSFORLU CEVRİYƏ. Əl çək, Hacı! Sürüş! Yeri get!
HACI. *(Fosforlunu tutub, qapının qarşısına çıxardır. Boynunu qucaqlayır)* Hamıya gəldiyin nömrələri mən yemərəm. Nə danışmışıq? Fahişə! (Qançıq!) Keç içəri! Məni camaatın qabağında rüsvay edəcəksən? Bu günə kimi Hacının masasın-

dan heç kim icazəsiz getməyib. Mən elə axmaq, sadəlövhəm?!
FOSFORLU CEVRİYƏ. *(Ağlayırmış kimi)* Vəziyyətimi görmürsən?
HACI. Vəziyyətinə nə olub, qəhbə! (qancıq!) Hələ tanışını, dostunu masaya çağırırsan... Peysərin qızı! Keç içəri...

*(İçəri girirlər. Masanın ətrafında əyləşirlər.*
*Udçu Kor Abdi qapıdan içəri girir.)*

TOP MƏLAHƏT. Süfrəyə gəl, Abdi. Bizim üçün bir şey ifa elə.

*(Abdi səsə tərəf gəlir. Stulda oturur. Udunu torbasından çıxarır. Kökləyir.)*

HACI. Nəsə yeyirsən, nəsə içirsən?
UDÇU KOR ABDİ. İçmirəm, oğul. Siz işinizdə olun, əylənin. Necə olsa, çərəzdən bolluqdur. İstəyəndə, yeyərəm.
TOP MƏLAHƏT. Abdi əmi, maşallah sənin gözün bizimkilərdən itidir. Hardan bildin ki, çərəzdən bolluqdur?
UDÇU KOR ABDİ. Mənim gözüm yox, burnum itidir, qızım.
HACI. Səninlə ova çıxmaq lazımdır. Pulun da iyini hiss eləyirsən?
UDÇU KOR ABDİ. Hiss eləyirəm. Bu masada da var, özü də boldur.
HACI. Qız, daha gül görək. Hə, Abdi, Fosforlu Cevriyəni çal... Hamımız bir yerdə oxuyaq...
HAMISI BİRLİKDƏ.

Şöbədə güzgü var, güzgü var,
Qızın qolunda damğa var,
Gözlərindən bəllidir, Cevriyəm,
Səndə qara sevda var.
Düzünü de, Fosforlu,
Səndə qara sevda var!

Dənizlərin qumuyam, qumuyam,
Balıqların quluyam.
Aç, ağuşunu, mən gəldim, Cevriyəm,
Mən də Allah quluyam.
Düzünü de, Fosforlu,
Mən də Allah quluyam!

FOSFORLU CEVRİYƏ. *(Əlindəki stəkanı yerə vurur)* Sus, Abdi əmi!
HACI. Səsini başına atma!
FOSFORLU CEVRİYƏ. Görmürsünüz? İki qolumda da damğa var!
TOP MƏLAHƏT. Həddən artıq sərxoşdur.
YEDDİBƏLA GÜLSƏRƏN. Özü də necə...

HACI. Mahnını oxumağa davam elə, Abdi.
UDÇU KOR ABDİ. Amma...
HACI. Davam elə!
UDÇU KOR ABDİ.

Haralarda Fosforlum?!
Moriyada Fosforlum,
Yaşa, yaşa, Fosforlum,
Haralarda Fosforlum?!

HACI. Abdi, rəqs havası çal.

*(Fosforlu ayağa qalxır. Salonun ortasındadır. Fosforlu oynayır. Top Məlahət və Yeddibəla Gülsərən də alqışlayaraq dəstəkləyirlər.)*

HACI. *(O da qızışır, coşur)* Sənin üçün can fanar, müşəmbə olsa, yanar.
FOSFORLU CEVRİYƏ. *(Xeyli oynayır. Birdən kül qabını götürür)* Saxla, Abdi, saxla! *(Əlindəkini yerə vurur. Özünü yerə çırpır. Hönkür-hönkür ağlayır.)*
HACI. Əməlli-başlı "konservdir"
TOP MƏLAHƏT. Konserv yox, "konsevləşmiş".
YEDDİBƏLA GÜLSƏRƏN. Beləsinə "konservləşmiş" yox, "konservləşdirilmiş" deyilir.
HACI. Həmişə belə olur?
TOP MƏLAHƏT. Heç görməmişəm.
HACI. Aaaaaa, qisası bizlədir? Məqsədi bizi rüsvay eləməkdir? Abdi, götür bu bəxşişi. Az qalmışdı ki, külqabı sənin başına dəysin. *(Ayağa qalxır)* Üzünü yuyun bunun. *(Barbanın yanına keçir. Hesabı öyrənir.)*
TOP MƏLAHƏT. *(Zəif səslə)* Nə olub, axı, Cevriyəm? Səndə nə var?
FOSFORLU CEVRİYƏ. Eh, bacı, məndə qara sevda var!.. *(Hacının üzünün o tərəfə olmağından istifadə edərək, bayıra qaçır.)*
HACI. *(Fosforlunu görmür)* Bu, hardadır?
TOP MƏLAHƏT. Üzünü yuyur.

*(Hacı çıxmaq istəyir. Top Məlahət yıxılmış kimi qapının qarşısında uzanır, Hacı çıxa bilmir.)*

FOSFORLU CEVRİYƏ. *(Tamaşaçılara)* Yıxılıb dura-dura qaçıram. Bayırda hava buz kimidir. Yaxşı təsir elədi. Mehmanxanaya (evə) getməliyəm. İnşallah yolda tutulmaram. Nə baş verdiyini bilməliyəm. İnsaniyyət ölüb? O qədər yaxşılığa bu, nankorluq deyil? Boş binanın içində dincəlirəm. Əməlli-başlı ayıldım. Artıq qaçmamalıyam. Gözətçilər şübhələnərlər... Yavaş-yavaş... Aradan xeyli vaxt keçdi... Gəzirəm... Gəldim... Mehmanxananın (evin) qapısındayam... *(Qapını açmağa çalışır. Bağlıdır, aça bilmir. Qapını əli ilə döyür.)* Kərim qardaş, aç,

mənəm. Kərim qardaş!
KƏRİM. Vay!.. Sənsən? Daha qapını bağlı saxlayırıq.
FOSFORLU CEVRİYƏ. Heç çölə çıxmır?
KƏRİM. Çıxa bilmir... Çünki tutulub.
FOSFORLU CEVRİYƏ. Deməli, anası danışıb.
KƏRİM. Anası deyər? Başqa işə görə onu cinayət başında ələ keçirdilər.
FOSFORLU CEVRİYƏ. Bu təzə təqsiri də böyükdür?
KƏRİM. Yox. Amma kimliyini müəyyənləşdirsələr, çətin olacaq. Hələ kim olduğunu bilmirlər.
FOSFORLU CEVRİYƏ. Deməli, kim olduğunu bilməsələr, xilas olacaq. Elədir?
KƏRİM. Əksi olsa... Allah eləməsin!
FOSFORLU CEVRİYƏ. Kərim qardaş, nə isə eləyək.
KƏRİM. Dostlarımın çoxu artıq yaşamırlar. Onsuz da o ağır cəzanı qiyabi olaraq veriblər. Sən sərxoşsan. Bu halınla neyləyə bilərsən ki?!
FOSFORLU CEVRİYƏ. Nə istəsəm eləyə bilərəm, qardaşım.
KƏRİM. Onu çox sevirsən?
FOSFORLU CEVRİYƏ. Öləsən elə. Bəlkə də, xoşuna gələr. Deyərsən ki, bu, küçə qadınıdır. Bəlkə də, elə bilirsən ki, yalan danışıram. Amma sənin canına and olsun, düz deyirəm, Kərim qardaş. Yediyim çörəyə and olsun ki, onun yaşamağını istəyirəm... O yaşasın, mən ölüm, razıyam. Bu əziz canımı Allah bədənimdən çıxarsın! Vecimə deyil. Həbsxanaların nə olduğunu yaxşı bilirəm, qardaş. Bağlı, qıfıllı qapıları, dəmir barmaqlıqları, qandalları tanıyıram. Növbətçiləri, bir stəkan suyu başqalarından gözləməyin əzabını yaxşı bilirəm. Çöldə dünyalar, küçələr, insanlar olduğu halda, hava, günəş, göy, dəniz var ikən, divarların arxasında olmaq nə deməkdir, mən yaxşı bilirəm. Hamısını yaşamışam. Qandal görməyən əllər onun ağırlığını hardan bilir?! Qandalsız, jandarmsız gəzmək nə gözəldir, qardaş. İndi onun, qəfəsdəki aslan kimi aşağı-yuxarı fırlandığını, gəzdiyini görürəm. İnsanlar saray istəyir, pul istəyir, dəbdəbə istəyir, paxlava-börək istəyir... Mən, onu azadlıqda görmək istəyirəm. Onu azad eləyək, qardaş.
KƏRİM. Cevriyə, onu azad eləmək üçün gərək kim olduğu üzə çıxmasın. Dünən gecə iki nəfəri də tutublar. Onlardan biri məni tanıyır. Deyəsən, burda qalır. Danışsa, o da, hətta mən də bataram. Polis ona aid çap nümunələrini – qəzet, jurnal tapsa, kim olduğu bəlli olar. Yıxmaq mümkün olan bir şey olsa, asan idi. Onları gərək dənizə tullayaq. Onsuz da bağlamanı mən hazırlamışam. Sənə güvənirəm. *(Qapının arxasındakı bağlamanı göstərir.)* Amma bir az ağırdır. Əslində, aparacaqdım. Amma ələ keçsəm, mənim yerim-yurdum məlumdur. O saat əlaqədə olduğumuzu bilərlər.
FOSFORLU CEVRİYƏ. Qardaş, bağlamada nə var?
KƏRİM. Dedim axı, çap nümunələri. Onunla yazılarını çoxaldır.
FOSFORLU CEVRİYƏ. Kərim qardaş, hara aparmalıyam, de?!
KƏRİM. Bu məhəllədən bir az gedirsən. Sonra heç kim görməyəndə, zibilliyə atarsan.
FOSFORLU CEVRİYƏ. Olar, qardaş.

KƏRİM. Bəs, ələ keçsən? İşin pisi odur ki, səni danışdıracaqlar.
FOSFORLU CEVRİYƏ. Ələ keçmərəm, qardaş. Ələ keçsəm belə, danışdıra bilməzlər. Mən heç tanımadığım adamdan ötrü bir il həbsxanada yatmışam. Amma səndən bircə xahişim var, Kərim qardaş... Mənə bir dənə çalma tap... Saçlarım işıqda parıldasa, məni tanıyacaqlar. Çünki adım Fosforludur.

*(Kərim içəri keçir. Bir az sonra əlində çalma və bağlama ilə gəlir.)*

KƏRİM. Əvvəlcə, mən gedim. Bir az gözlə. Sonra qapını örtüb çıxarsan.

*(Kərim sürətli addımlarla çıxıb gedir.)*

FOSFORLU CEVRİYƏ.

İÇİM YANIR, İÇİM
Ətlərim tikə-tikə,
Ürəyim paramparça.
Yoxsa, qanım azalır,
İçim yanır, içim.

Ah, onu öldürsələr,
Yaşamağım mümkündürmü?
Ona qurban olaram,
İçim yanır, içim.

Əyərəm başımı aşağı,
Yalvararam cəlladına.
Vecimə deyil heç nə,
Əsas odur, sən ölmə.

*(Çalmasını örtür, bağlamanı götürür. Addımlamağa başlayır. Gözətçi görünür.)*

GÖZƏTÇİ. Dayan görüm. O bağlamada nə var?

*(Gözətçini itələyir. Gözətçi yerə yıxılır. Əlindəki bağlama ilə Fosforlu qaçır. Gözətçi təqib edir. Bir neçə dəfə dövrə vururlar. Gözətçi silahını çıxarır. Bir neçə dəfə atəş açır. Fosforlu vurulub. Yerə yıxılır.)*

SUAT DƏRVİŞ. *(Fosforlu Cevriyə Suat Dərviş olur. Düymələrə basır.)* Açıq ağzı, parıldayan dişləri və saçları ilə Fosforlu yerdə yatırdı. Adamsa səhəri gün sübut çatışmazlığından sərbəst buraxılmışdı. Polis bağlamadakılarla Fosforlunun nə əlaqəsi olduğunu ayırd edə bilmədi. İki gün sonra Top Məlahət, Gülsərən, Gülnaz,

Sünbül xala, Barba, Kor Abdi, hətta Dəli Marika və Hacı - hamısı birlikdə, Fosforlunu Feriköy qəbiristanlığında basdırdılar. Bir neçə uşaq əllərindəki səhəngdən təzə torpağa su tökdülər. Və yenə hamısı birlikdə Barbanın meyxanəsinə getdilər. *(Hamısı içəri girir.)* Və Hacı dedi ki: Bu gün mənim qonağımsınız. Bütün hesablar məndən. Yeyin, için, hər şey məndəndir. Sən də gəl, Kor Abdi, çal!.. *(Musiqinin başlanğıcı eşidilir.)* Və həyat davam eləyirdi... *(Suat Dərviş yerindən qalxıb, oxuyur:)*

İSTANBUL KÜÇƏLƏRİ
1947...
Aylardan oktyabr...
Belə bir gecəni
İstanbul görmədi heç.

Adalar və Modalar,
Boğaz kənarı sahillər...
Şişlidə mənzillərdə
İmistidir havalar...

Kimsə görmürmü
Bu qədər çox ziddiyyəti?
Küçələrdə etibar, güvən axtaran
Yoxsulluq və kimsəsizliyi?

Səkilərdə pişiklər,
Zəif, cılız köpəklər.
Yoxsullar, kimsəsizlər
İsti bir şorba istər!

Və tinlərin başında
Hər yaşda qadınlar var.
Bəxşişi çox verən
bir nəfəri gözləyirlər,
Əsə-əsə tamaşa eləyirlər.

Kimsə görmürmü
Bu qədər çox ziddiyyəti?
Küçələrdə etibar, güvən axtaran
Yoxsulluq və kimsəsizliyi?

Artıq kimsə görməlidir
Acınacaqlı ziddiyyəti.

Küçələrdə güvənli, sərbəst gəzməlidir
Mərhəmət və sevgi.

**S O N**

**10 Dekabr 2015**
**İstanbul**

**Tərcümə tarixi:**

***17 - 24 İyul 2020***
***Şəki***

**Azərbaycan dilinə tərcümə edən:**
**ELVİN NURİ**